

## Zakir Həsənov cənub sərhədinə getdi - XTQ-nin təlimini izlədi

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti respublikamızın cənub rayonlarında yerləşən hərbi hissə və birləşmələrin döyüş hazırlığını yoxlayıb. "Unikal" xəbər verir ki, noyabrın...*

Səh.2


# UNİKAL

№41 (2126) 4 noyabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Anar Kərimov üçün Əbülfəs Qarayev yolu

### Mədəniyyət Nazirliyində növbəti əməliyyat keçirildi; keçmiş nazir və komandasının aqibətindən dərs almayanlar kimlərdir?

*Yola salmaq üzrə olduğumuz həftənin ən səs-küylü hadisələrindən biri, şübhəsiz ki, Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) Mədəniyyət Nazirliyində son iki ilyarımda ikinci dəfə xüsusi əməliyyat keçirməsidir. Bu əməliyyat barədə hələlik rəsmi məlumat açıqlanmasa da, saxlanılanların, istintaqa cəlb edilənlərin olduğu məlumdur. Məsələn, adıçəkilən nazirliyin Təchizat və əmlak şöbəsinin müdiri İlkin Nəsibovun barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq orqanının vəsatətinə baxılıb. Səbail rayon Məhkəməsində keçirilən prosesdə vəsatət təmin edilib. İlkin Nəsibov barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.*

Səh.8



## Regionda yeni "qanlı oyun" hazırlanır...

Səh.9

## "Sülh müqaviləsi Ermənistana sərf edən məsələdir"



*Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin Soçi görüşündən, İranın Azərbaycan sərhədində keçirdiyi təlimlərdən, Ermənistanın Baş naziri Nikol Paşinyanın İrana səfərinin məqsədindən və başqa məsələlərdən danışıb.*

Səh.4

## Samir Şərifov Hesablama Palatasının rəyinə qarşı çıxdı



*Maliyyə naziri Hesablama Palatasının bəzi rəylərini qəbul etmədiyini bildirib. Maliyyə naziri Samir Şərifov bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı danışıb. "Palatanın rəyi ilə tanış olmuşuq. Amma bununla...*

Səh.2

## "Türkiyədə olan dərman Azərbaycanda 7-8 dəfə baha satılır" - Deputat



*"Büdcənin xərc siyasətinə baxanda prioritet sahədə müdafiə, səhiyyə, təhsildir". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputat Vahid Əhmədov deyib.*

Səh.5

# Könül Kərimova: "Məktəbdə oxuyanda, gizli toylara gedirdim"



***"Heç zaman payız fəslini sevməmişəm. Payız gələndə çox həssas, kövrək oluram. Atamın nazik üst geyimi vardı. Ağlım kəsəndən bəri onu qalın geyimdə heç görmədim. Atam işə gedəndə onun arxasıyca baxırdım, soyuqdan üşüdüyünü hiss edirdim. Ən əsası da küləyi sevmirəm".***

"Unikal" bizim.media-ya istinadən bildriir ki, bu sözləri Əməkdar artist Könül Kərimova qonaq olduğu "7 canlı" axşam şousunda deyib.

Atası ilə bağlı xatirələrini dilə gətirən sənətçi verilişdə kövrəlib. Könül kasıb ailədə böyüdüyünü bildirib: "Atam hər zaman deyirdi ki, Könül mənim qızım yox, oğlumdur. Gələndə, gülə-gülə deyirdi ki, oğlum gəldi. Atam bizi nədənsə, korluq çəkməyə qoymayıb. Biz varlı yox, kasıb ailə olmuşuq.

Nə olmağından aslı olmayaraq, atam çalışıb ki, qarnımız tox olsun. Şair Nüsrət Kəsəmənlinin şeiri yadıma düşür, "Biri vardı, biri yox". Bizim də evdə "Biri vardı, biri yox". Atam yaşlananda artıq qazanc arxasıyca gedə bilmirdi. Hələ orta məktəbi bitiməmişdim. Gizli şəkildə toylara gedirdim. O zamanlar isə bu heç də yaxşı qarşılanmırdı. Çalışırdım ki, toya getməyimdən müəllimlər xəbər tutmasınlar. Deyirdilər ki, səsə, tellərə çox ziyan olar və zədələnə bilər. Lakin çalışdım ailəmizə xüsusi ilə atama dəstək olum. Buna görə də, mənə deyirdi ki, qızım yox, oğlum var. Atam dünyasını dəyişdi. Amma şükürlər olsun ki, anam yaşayır. Arzu edirəm ki, anamın ömrü uzun olsun. O, mənə təsəllidir".

Qeyd edək ki, K.Kərimova Rəhim adlı bəylə evlidir. Cütlüyün Ləman və Rəşad adında övladları var. Ləman 5 il əvvəl Orxan adlı bəylə ailə həyatı qurub. Cütlüyün Dəniz adlı qız övladları var. Rəşad isə subaydır. O, müğənni kimi fəaliyyət göstərir.

# Əməkdar artist blogerləri tənqid etdi: "Mənliyiniz haradadır?"



***Əməkdar artist Münəvvər Əliyeva sosial şəbəkədə məşhurlaşanları tənqid edib.***

"Unikal" xəbər verir ki, aktrisa MTV-yə açıqlamasında nə instaqrama, nə də feysbuka baxdığını deyib. O bildirib ki, hamı insana sosial şəbəkədəki izləyici sayına görə dəyər verir:

"İnstaqram, feysbuka baxmıram, mənim üçün maraqlı deyil. Sosial şəbəkə insanları həm bədbəxt, həm də xoşbəxt edir. Hər kəs birinci ona baxır ki, nə qədər izləyicin var. Hə, göy işarədirsə, deyir, gəl, yaxınıma getdik. İnsanlığımız harada qaldı? Keçmişdə danışdığımız dəyərlər, mənliklər haradadır? Budur? Onda uşağımı oxutmayım, özünü paylaşsın. Hər şey etsin, hamı bəh-bəh desin, oradan da pul qazansın, məşhur olsun. Universitetlər niyə yaranıb? Onda ləğv etsinlər unviersitetləri. Sosial şəbəkəylə özlərini reklam etsinlər".



# "Fatimə yeyir, sonra da gedir əməliyyata" - Afaq Gəncəli

***Aparıcı Afaq Gəncəli rəqqasə Fatimə Fətəliyevanın əməliyyatlarına söz atıb.***

Afaq "Səhər mərkəzi" proqramına qonaq olan həmkarı Mətanət Əliverdiyeva ilə Fatimənin aparıcılığından bəhs edib. Mətanətin bir vaxtlar aparıcılıq etdiyi "Gəzək, bişirək" proqramının yeni aparıcısı olan Fatimə haqda dediyi "Fatimə deyir ki, kökəlmişəm. "Gəzək, bişirək"də yeyirəm. Mən bir il veriliş apardım, çəki itirdim. Qəti yemirdim" sözlərinə Afaq belə reaksiya verib:

"Fatimə emosional xanımdır. Yəqin emosiaları yuxarı qalxanda yemək yeyir. Onda da kökəlir. Sonra da gedir əməliyyata. Yaxşı ki, çarə var".

# "Damla geyimləri ilə gülünc görünür" - Mətanət



***Aparıcı Mətanət Əliverdiyeva müğənni Damlanın geyimini tənqid edib.***

Bu haqda aparıcı "Xəzər axşamı" proqramında danışıb. O bildirib ki, Damla geyimlərinə görə hər zaman təhqir olunur:

"Damlanı düzgün geyindirmirlər. Oxu tərzinə uyğun geyinmir, onu səhv istiqamətləndirirlər. Bu da gülünc görünür. Bir dəfə şortik geyinib, oxu tərzinə uyğun deyil. Bir də bədən quruluşu deyilən anlayış var, insan yaraşdırmalıdır. Damlaya tənqid yox, artıq təhqir yazırlar".

Qeyd edək ki, Damla yayda verdiyi konsertlərin birində geyindiyi geyiminə görə tənqid edilmişdi.

# Yusif Mustafayev qorxusundan xaricdəki toylara getmir

Əməkdar artist Yusif Mustafayevin aerofobiyası (təyyarə ilə uçmaqdan qorxmaq) olduğu üzə çıxıb.

"Unikal" axşam.az-a istinadən xəbər verir ki,, bu barədə sənətçi "Xəbər-ətər" verilişində danışıb. O bildirib ki, bu səbəbdən nə xaricdə istirahət edir, nə də orada keçirilən toylara gedir. Müğənni aparıcının "Xaricdən böyük məbləğdə toy təklifi gəlsə, getməzsiniz" sualına isə belə cavab verib:

"Getmərəm, əgər alnıma yazılıbsa, harada olmağıma baxmayaraq Allah o bərəkəti mənə verəcək. Qurban olum Azərbaycanın bərəkətinə. Deyirlər ki, uzaq yerin halvasın, hoza ilə döyərlər. Arıq öz yerində kökələr".





## "Reallıqda inflyasiya daha çoxdur" - Əli Məsimli

***"2023-cü ildə əməkhaqqıların və pensiyaların artırılması, əslində, inflyasiyaya görə kompensasiyadır, artım deyil".***

"Unikal" xəbər verir ki, deputat Əli Məsimli Milli Məclisdə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

Deputat bildirib ki, bir çox məhsulların qiyməti çox artıb: "Burada qeyd edilir ki, inflyasiyaya səbəb xaricdən qaynaqlanan faktorlardır. Mən xahiş edirəm, açıqlayın ki, hazırda olan inflyasiyanın neçə faizi xarici faktorlardan qaynaqlanır, neçə faizi daxili, neçə faizi isə monopolistlərin etdiyi süni qiymət artımı nəticəsindədir? Gələn il inflyasiyanın 6,9% olacağı deyilir. Bizim hesablamalarımıza görə, reallıqda inflyasiya daha çoxdur".

Ə.Məsimli qeyd edib ki, son illər büdcənin neftdən asılılığının azaldılması istiqamətində addımlar atılır: "Amma belə davam etsə, biz yenidən Dövlət Neft Fondundan əlavə vəsait alınması üçün müraciət edəcəyik".

## "Azərbaycan tezliklə İsraildə səfirlik açmalıdır" - Deputat

***"Azərbaycan tezliklə müttəfiqimiz olan İsraildə səfirlik açmalıdır".***

"Unikal" xəbər verir ki, bunu deputat Asim Mollazadə Milli Məclisdə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib

O bildirib ki, ununla bağlı büdcədən vəsait ayrılmalıdır.

## AZAL-ın strukturunda dəyişiklik oldu

***"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinə dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb. Qərara əsasən, Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin tərkibinə dəyişik edilib. Dəyişikliklə İdarə Heyətinin tərkibi 7 nəfərdən - Cəmiyyətin prezidenti, 2 birinci vitse-prezidenti və 4 vitse-prezidentindən ibarət olacaq. İndiyə qədər İdarə Heyətinin tərkibi 7 nəfərdən - Cəmiyyətin prezidenti, birinci vitse-prezidenti və digər vitse-prezidentlərindən ibarət idi.

## Deputat kəndlərdə bankomatların azlığından şikayətləndi

***"Rayonlarda, kəndlərdə insanlar öz pensiyalarını, təqaüdlərini almaq üçün bir kənddən başqasına gedirlər".***

"Unikal" xəbər verir ki, bunu deputat Rüfət Quliyev Milli Məclisdə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib

Deputat bildirib ki, Azərbaycanda bankları arasında köçürmələrin faizləri çoxdur: "Ümumi 0,5% komissiya haqqı tətbiq edək. Bunlar hamısı Azərbaycan banklarıdır".

# Anar Kərimov üçün Əbülfəs Qarayev yolu

### Mədəniyyət Nazirliyində növbəti əməliyyat keçirildi; keçmiş nazir və komandasının aqibətindən dərs almayanlar kimlərdir?

***Yola salmaq üzrə olduğumuz həftənin ən səs-küylü hadisələrindən biri, şübhəsiz ki, Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) Mədəniyyət Nazirliyində son iki ilyarımda ikinci dəfə xüsusi əməliyyat keçirməsidir. Bu əməliyyat barədə hələlik rəsmi məlumat açıqlanmasa da, saxlanılanların, istintaqa cəlb edilənlərin olduğu məlumdur. Məsələn, adıçəkilən nazirliyin Təchizat və əmlak şöbəsinin müdiri İlkin Nəsibovun barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq orqanının vəsatətinə baxılıb. Səbail rayon Məhkəməsində keçirilən prosesdə vəsatət təmin edilib. İlkin Nəsibov barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.***

Qarşıdakı günlərdə əməliyyatın tam detallarının açıqlanacağı, yeni həbslər barədə məlumatların yayılacağı gözlənilir.

Beləliklə, uzun müddətdir hazırda Anar Kərimovun rəhbərlik etdiyi Mədəniyyət Nazirliyi ilə bağlı cəmiyyətdə dolaşan fikirlər, mediada yer alan iddialar, xəbərlər təsdiqini tapdı. Həmin fikirləri, iddia və xəbərləri birləşdirən məqam isə Əbülfəs Qarayevin uzaqlaşdırılmasından sonra da sözügedən qurumda işlərin qaydasına düşmədiyi, hələ də rüşvət, korrupsiya hallarına yol verildiyi idi.



Xatırladaq ki, 2020-ci il mayın əvvəllərində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Mədəniyyət Nazirliyində əməliyyat keçirmiş, nəticədə Mədəniyyət nazirinin müavini Rafiq Bayramov və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov həbs edilmişdi. Sonradan Rafiq Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Zakir Sultanov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarında ittiham olunurdu.

Düzdür, ozamankı nazir Əbülfəs Qarayevin də məsuliyyətə cəlb ediləcəyi barədə həmin vaxt müxtəlif iddialar səslənir, fərziyyələr irəli sürülürdü. Əslində, bunun üçün kifayət qədər əsaslar da var idi. Çünki adıçəkilən nazirlikdə rüşvət və korrupsiyanın miqyası elə geniş idi ki, Qarayevin bu qanunsuzluqlardan xəbərdar olmamasına dünyanın ən sadəlöhv insanı belə inanmazdı. Hər bir halda Əbülfəs müəllim yaranmış situasiyadan vəzifəsini itirməklə çıxa bildi (bir çoxlarının fikrincə, bu, sabiq nazir üçün ən uğurlu variant sayıla bilər, hərçənd, onun həbs təhlükəsindən tam qurtulmadığını düşünənlər də az deyil. Bu cür fikirləşənlər sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun vəzifədən uzaqlaşdırıldıqdan xeyli sonra cinayət məsuliyyətinə cəlb olunmasını və həbsə göndərilməsini misal göstərirlər).

Düşünmək olardı ki, 2020-ci ilin mayında Mədəniyyət Nazirliyində keçirilən əməliyyatdan sonra bu qurum rüşvət və korrupsiyadan təmizlənəcək, yeni nazir Anar Kərimov nazirlikdə şəffaflığa nail olacaq. Lakin aradan keçən 2,6 aylıq müddətdə bu baş vermədi. Sadə bir fakt: bir müddət əvvəl məlumat verildi ki, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2021-ci il və 2022-ci ilin birinci yarısında Mədəniyyət Nazirliyinin müraciəti əsasında 11 halda araşdırma aparılıb. Araşdırmalar nəticəsində Bakı şəhəri, Bərdə, Şamaxı, Ağcabədi və Kürdəmir rayonları ərazisində yerləşən mədəniyyət müəssisələrinin rəhbər vəzifəli şəxslərinin əsasən dələduzluq, mənimsəmə və israf etmə, rüşvət alma, vəzifə səlahiyyətlərindən sui-istifadə və vəzifə saxtakarlığı cinayətləri törətmələri faktlarına dair 8 cinayət işi başlanıb.

Bunlardan 4 şəxs barəsində 4 cinayət işi baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilib, 1 cinayət işi üzrə dövlətə vurulmuş zərərin ödənilməsi təmin edildiyindən icraata xitam verilib, 3 cinayət işi üzrə isə hazırda istintaq davam etdirilir.

Dövlət büdcəsinə vurulmuş 1 milyon 870 min manat zərərin 917 min manat hissəsinin istintaq dövründə ödənilməsi təmin edilib. Düzdür, sözügedən cinayət işləri çərçivəsində konkret olaraq nəyin araşdırıldığı və kimlərin məsuliyyətə cəlb edildiyi açıqlanmır. Lakin görünən odur ki, Mədəniyyət Nazirliyinin strukturlarında hələ də qanundankənar əməllər davam etdirilir, bir çox vəzifəli şəxslər Əbülfəs Qarayevin nazir olduğu dönəmə xas olan zərərli vərdişlərindən əl çəkmək istəmirlər.

Hətta "Unikal" qəzeti olaraq biz məhz bu məqama diqqət çəkərək "Mədəniyyət Nazirliyində Əbülfəs Qarayev küləkləri əsir..." başlıqlı, "Bu qurumda rüşvət və korrupsiyanın kökünü kəsmək niyə mümkün olmur? - Anar Kərimov üçün SOS!" altbaşlıqlı yazı da dərc etmişdik. Elə ondan əvvəl də həm qəzetimizdə, həm də ayrı-ayrı KİV-lərdə Qarayevdən sonraki dönəmdə də adıçəkilən nazirlikdə çox şeyin dəyişmədiyi, əksər vəzifəli şəxslərin "köhnə hamam, köhnə tas" prinsipi ilə hərəkət etdiyi barədə məlumatlar yayılmışdı.

DTX-nin Mədəniyyət Nazirliyində yeni əməliyyat keçirməsi göstərdi ki, həmin deyilənlərdə, yazılanlarda həqiqət payı böyükdür. Baxmayaraq ki, Kərimov və komandası bütün deyilənlərə, yazılanlara susqunluqla yanaşmış, beləcə, "Əbülfəs Qarayev yolu" seçmişdilər. Sonluq da məlumdur. Adında "mədəniyyət" sözü olan bir nazirlik cəmi iki il yarımda ikinci dəfə antikorrupsiya əməliyyatı ilə gündəmə gəlir. Anar müəllim və komandası inciməsin, bunun hər hansı normal izahı ola bilməz. Bu, birilərinin sabiq nazir və komandasının taleyindən düzgün nəticə çıxarmaması ilə yanaşı, Mədəniyyət Nazirliyində yeni rəhbərliyin öz işini yarıtmaz qurmasının nəticəsidir.

Hələlik bu qədər. Nazirlikdəki əməliyyatın təfərrüatları rəsmən açıqlandıqdan sonra bu mövzu ətrafında daha ətraflı bəhs edəcəyik...

***Hüseyn İsgəndərov***

# Regionda yeni “qanlı oyun” hazırlanır...

***Azərbaycanla İran arasındakı münasibətlər gərginləşməkdə davam edir. İctimai-siyasi, diplomatik müstəvidə olan tərəflər arasındakı gərginlik, hərbi qüvvələrin əzələ nümayişi ilə davam edir. Görünən odur ki, bu gərginlik hələ bir müddət davam edəcək. Lakin proseslərin hansı məcrada davam edəcəyi və nə ilə nəticələnəcəyini bəri başdan proqnozlaşdırmaq çətindir.***

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, deputat Səməd Seyidov ”Unikal”a açıqlamasında deyib ki, İranla münasibətlərin hazırkı vəziyyəti olduqca təhlükəlidir: ”Regionda xüsusi çəkisi olan, böyük potensiala malik olan İran indiyədək öz siyasətində göstərmədiyi məsələləri artıq açıq şəkildə bəyan edir. Bu da birbaşa İran-Ermənistan münasibətlərinin nümayişkəranə formada bəyan edilməsi deməkdir. Soçi görüşündən sonra Paşinyanın Tehrana səfəri, orada verilən bəyanatlar və imzalanan sənədlər ona dəlalət edir ki, İran Ermənistanı yenidən dirçəltmək siyasətini seçib və ona hər cür dəstək verməyə hazırdır. Bu da Azərbaycanın regionda yaratdığı yeni reallığın nəticəsidir. Təəssüflər olsun ki, İran tərəfi bu reallığı qəbul etmir. Ona görə də bu formada siyasət aparmağa başlayıb. Uğurlu, inkişaf etmiş, sülhün qarantı olan Azərbaycan dövləti İranda yaşayan 40 milyondan artıq azərbaycanlılar üçün bir növ nümunəyə çevrilə bilər. Bu təhlükəyə görə İran Ermənistana daha yaxın siyasət aparmağa məcbur olur və Azərbaycanı hər hansı yolla zəiflədərək həmin ümidləri doğrultmamaq üçün davranış göstərir. Əlbəttə ki, bu, yanlış siyasətdir. Cənub qonşumuz özü müasirləşməlidir. İranın daxilində gedən proseslər də ona dəlalət edir ki, bu dövlət istər-istəməz müasir gəncliyin və dünyanın tələblərini dərk etməlidir. İran Azərbaycana qarşı səbəbi anlaşılmayan qısqanclıq siyasətinin əvəzinə öz daxilindəki problemlər barəsində düşünməlidir. Bundan başqa, onlar regionda sabitliyi təhlükə altına salmaq əvəzinə Azərbaycanla əlaqələri möhkəmləndirərək dostluq münasibətləri yaratmalıdırlar. Onu da qeyd edim ki, Azərbaycan regionda tək deyil. Burada güclü Türkiyə faktoru var. Türkiyə ilə yanaşı, bizim Mərkəzi Asiya ölkələri ilə, Pakistanla və digər ölkələrlə də güclü münasibətlərimiz var”, - deyə deputat qeyd edib.

Siyasi şərhçi Asif Nərimanlı isə Xüsusi Təyinatlı Qüvvələrinin cənub sərhədlərində təliminin İranın hərbi təlimlərinə cavab olduğunu bildirib. Müsahibimiz burada diqqətçəkən məqamın başqa olduğunu vurğulayıb: “İranın indiyə qədər Azərbaycana qarşı irəli sürdüyü bütün təhdidlərə rəğmən, rəsmi Bakı barışdırıcı mövqe tutur və diplomatik gedişlər edirdi, indi ilk dəfədir ki, hərbi təhdidə qarşı hərbi müstəvidə cavab verilir. Bunun bir neçə səbəbi var. Birincisi, İranın mövcud rejimi Azərbaycanın bütün xoşniyyətinə rəğmən təhdid ritorikasından əl çəkmir, əksinə, barışdırıcı, uzalaşdırıcı mövqeni “geri-çəkilmə” kimi qəbul edərək, Bakının üzərinə gəlməyə davam edir. İkincisi, İranın Azərbaycan ərazisinə qarşı mümkün müdaxilə perspektividir: 44 günlük müharibədən sonra İranın təhdidləri artan xətt üzrə inkişaf edir, lakin bu təhdidlərin bölgədəki şərtləri dəyişdirməyəcəyi də məlumdur və bunun fonunda molla rejiminin müdaxilə etməsi ssenarisi də nəzərə alınmalıdır; İran rəsmiləri və siyasətçilərinin çağırışlarının bu istiqamətdə olması da təsadüfi deyil”.

A.Nərimanlı qeyd edib ki, Bakı mümkün təhdidlərə və risklərə qarşı hərbi müstəvidə hazırlıq aparır. ”Bu həm də o deməkdir ki, Azərbaycan İranın təhdidləri qarşısında öz maraqları və strateji xəttindən geri çəkilməyəcək. Araza “körpü atan”lara qarşı Vətən müharibəsində döyüş sənətini yenidən yazan XTQ-nin kazarmalardan çıxarılması da adekvat “əzələ nümayişi”dir: İran “Yaşma”nı tanımaq istəyirsə, qardaşı Ermənistandan soruşa bilər” - deyə müsahib fikrini tamamlayıb.

Politoloq Elxan Şahinoğlu hesab edir ki, İranla münasibətlərin elə bir nöqtəsinə gəlib çıxmışıq ki, bundan sonra hətta sözdə normal mehriban qonşuluq münasibətlərinin davamı çətin olacaq.Onun fikrincə, Tehran Azərbaycanla münasibətlərdə bütün qırmızı çizgiləri aşıb, bu ölkənin rəsmilərinin, diplomatlarının, deputatlarının və hərbçilərinin Azərbaycan əleyhinə davamlı açıqlamaları, sərhəddə hərbi təlimlər, qonşu ölkənin kəşfiyyat strukturlarının Azərbaycan ərazisində artan fəallığı və digər faktlar iki ölkə arasındakı münasibətlərdə dərin çat yaradıb: “Rəsmi Bakı da təxribatları cavabsız qoymayıb. Prezident İlham Əliyevin “Azərbaycandan kənarda yaşayan soydaşlarımızın taleyi diqqət mərkəzimizdədir” açıqlaması, azərbaycanlı deputatların İranın təxribatlarına adekvat cavabları, Güney Azərbaycan mövzusunun aktuallaşması, hətta Azərbaycan Dövlət Televizya kanalında bununla bağlı reportajların yayımlanması və Azərbaycan ərazisində İran kəşfiyyatına bağlı şəxslərin həbs edilməsi buna misaldır. İranda rejim dəyişməyənə və ya Tehranın xarici, o cümlədən təhlükəsizlik siyasətində köklü dəyişikliklər baş verməyənə qədər iki ölkə arasındakı münasibətlərin normallaşması mümkün deyil”.



***Murad İbrahimli***

# Milli Məclisin gündəliyi dəyişdi



***Milli Məclisin noyabrın 5-də keçiriləcək plenar iclasının gündəliyinə dəyişiklik edilib.***

”Unikal” xəbər verir ki, toplantının gündəliyindəki məsələlərin sayı 21-dən 22-yə çatdırılıb.

1. 8 Noyabr ? Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.

2. “Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

3. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

5. “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

12. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

13. “Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi haqqında”, “Maliyyə-sənaye qrupları haqqında” və “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

14. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

15. “Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə” və “Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

16. “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

17. “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

18. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

19. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

20. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

21. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

22. “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

# İstintaqa cəlb olunan nazir müavini işdən çıxarıldı



***Prezident İlham Əliyev E.Ə.Əliyevin Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamla Elnur Əli oğlu Əliyev Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilir.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Prezidentdən Arif Səmədovla bağlı sərəncam

***Azərbaycan Respublikası Prezidentinin Protokol xidməti rəisinin müavini Arif Vasif oğlu Səmədov vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamı ilə Arif Səmədov Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi təyin olunub.

# Azərbaycan və Ermənistanın XİN rəhbərləri ABŞ-da görüşəcək



***Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ABŞ-da görüşəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Parlamentdə çıxışı zamanı bildirib.

O, bir neçə gündən sonra Vaşinqtona gedəcəyini qeyd edib: "Mənimlə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və ABŞ dövlət katibi Entoni Blinken arasında görüş olacaq".

***Ağarza Elçinoğlu***

## BAŞSAĞLIĞI

Sumqayıt Tibb Mərkəzinin direktoru Səkinə Sadıxova və səhiyyə işçiləri Təcili Tibbi Yardım Xəstəxanasının həkim-anestezioloq-reanimatoloqu Bəxtiyar Zeynalovun vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Ramil Usubov Patruşevlə görüşdü

***Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Moskvada Azərbaycan Təhlükəsizlik Şurasının katibi Ramil Usubovla görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Təhlükəsizlik Şurası məlumat yayıb.

Görüş Rusiyanın paytaxtında keçirilən MDB təhlükəsizlik şuraları katiblərinin onuncu illik toplantısı çərçivəsində baş tutub.

Görüş zamanı regional təhlükəsizlik, informasiya təhlükəsizliyi və terrorizmlə mübarizə sahəsində Rusiya-Azərbaycan əməkdaşlığının perspektivləri müzakirə edilib.

Patruşev, həmçinin Ermənistandan olan həmkarı Armen Qriqoryanla da ikitərəfli görüş keçirib.

# Zakir Həsənov cənub sərhədinə getdi - XTQ-nin təlimini izlədi

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti respublikamızın cənub rayonlarında yerləşən hərbi hissə və birləşmələrin döyüş hazırlığını yoxlayıb.***

"Unikal" xəbər verir ki, noyabrın 3-də müdafiə naziri Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin qeyd olunan ərazilərdə keçirilən təlimini izləyib.

Məruzə olunub ki, xüsusi təyinatlıların döyüş hazırlığının yoxlanması və daha da yüksəldilməsi məqsədilə keçirilən təlimdə hərbi qulluqçular qarşıya qoyulan bütün tapşırıqları peşəkarlıqla yerinə yetirir. Hərbi Hava Qüvvələrinin, eləcə də Raket və Artilleriya bölmələrinin dəstəyi ilə icra olunan xüsusi əməliyyatlarda qoşun növləri arasında qarşılıqlı əlaqə yüksək səviyyədə



təşkil edilir.

Sonra təlimin növbəti mərhələsinə uyğun olaraq tapşırıqların icrası nümayiş etdirilib.

Plana əsasən xüsusi təyinatlılar real döyüş şəraitində həqiqi döyüş sursatlarından istifadə olunmaqla açılan atəş altında irəliləyərək müdafiə olunan şərti düşmənə yaxınlaşıb, onun canlı qüvvəsini və atəş vasitələrini zərərsizləşdirərək dərinliyə doğru irəliləyiblər.

Təlimdə həmçinin yaşayış məntəqəsində döyüşün aparılması, şərti düşmənin dərinliyinə desant endirilməsi və pusqunun icrası, eləcə də hava yolu ilə qruplara təminatın çatdırılması üzrə fəaliyyətlər də icra olunub.

Təlimin gedişatını müsbət qiymətləndirən general-polkovnik Z.Həsənov xüsusi təyinatlılarla görüşüb, onların qayğıları ilə maraqlanıb və şəxsi heyət qarşısında çıxış edib.

Müdafiə naziri çıxışında xüsusi təyinatlıların Vətən müharibəsində, eləcə də son qarşıdurmalarda göstərdikləri şücaət və qəhrəmanlıq nümunələrinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini bildirib. Onların təminat-təchizatının, o cümlədən döyüş hazırlığının daha da artırılmasının daim diqqət mərkəzində saxlanıldığını qeyd edib.

Sonda general-polkovnik Z.Həsənov Azərbaycan Ordusunda qazanılan döyüş təcrübəsinin öyrənilməsi və müasir üsullarla keçirilən təlim-məşq prosesində tətbiq edilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Samir Şərifov Hesablama Palatasının rəyinə qarşı çıxdı

***Maliyyə naziri Hesablama Palatasının bəzi rəylərini qəbul etmədiyini bildirib.***

Maliyyə naziri Samir Şərifov bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı danışıb.

"Palatanın rəyi ilə tanış olmuşuq. Amma bununla bağlı qeyd edilənlərin hamısını qəbul etmirik, düzgün hesab etmirik. Nəzərə alınmayan məsələlər var. Elə müraciətimizi də bu istiqamətdə edəcəyik", - nazir vurğulayıb.

Qeyd edək ki, oktyabr ayının 28-də Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərliyi ilə geniş tərkibdə Kollegiya iclası keçirilib. İclasda Kollegiyanın gündəliyinə çıxarılmış "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi"nin, "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi"nin və "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi"nin layihələrinin rəylərinə baxılıb, ətraflı müzakirə edildikdən sonra təsdiqlənib və müvafiq qaydada Azərbaycan Respublikası Milli Məclisinə göndərilib.



# Delimitasiya üzrə komissiyaların üçüncü görüşü baş tutdu

***3 noyabr 2022-ci il tarixində Brüssel şəhərində Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında, müvafiq olaraq, Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın üçüncü görüşü keçirilib.***



XİN-dən "Unikal"a verilən məlumata görə, iclas başlamazdan əvvəl Avropa Xarici Fəaliyyət Xidmətinin Baş katibi Stefano Sannino Azərbaycan Respublikası və Ermənistan Respublikası nümayəndə heyətlərini salamlayıb, Komissiyaların işinə uğurlar arzulayıb, Avropa İttifaqının Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşması məsələlərində kömək etməyə bundan sonra da hazır olduğunu təsdiq edib.

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan salamlama çıxışlarında Avropa İttifaqı Şurasına görüşün yaxşı təşkilinə görə təşəkkürlərini ifadə ediblər. Tərəflər, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının rəhbərləri səviyyəsində müxtəlif formatlarda əldə edilən razılaşmaları nəzərə alaraq, delimitasiya məsələlərinin müzakirəsini davam edib, təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər.

Komissiyaların birgə fəaliyyətinin hüquqi çərçivələrini müəyyən etmək məqsədilə, tərəflər Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyət qaydasının razılaşdırılması üzrə işi sürətləndirmək barədə razılığa gəliblər. Tərəflər Komissiyaların dördüncü iclasının keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

# Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının vəzifələri müəyyənləşdi



***Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının vəzifələri müəyyənləşib.***

"Unikal"ın xəbərinə görə, bu, Prezident İlham Əliyevin fərmanı ilə təsdiqlənən "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının fəaliyyəti Qaydası"nda əksini tapıb.

Komendantlığın vəzifələri aşağıdakılardır:

Komendantın Qanunda nəzərdə tutulmuş səlahiyyətlərinə uyğun olaraq komendantlıq aşağıdakı vəzifələri yerinə yetirir:

1. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə Qanunun 8-ci maddəsində nəzərdə tutulan tədbirlərin və müvəqqəti məhdudiyyətlərin tətbiq edilməsi zəruriliyini təhlil etmək və onların tətbiqi barədə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qərar qəbul edildikdən sonra həmin tədbirlərin və müvəqqəti məhdudiyyətlərin icrasını təmin etmək;

2. komendantın fövqəladə vəziyyət rejiminin təmin edilməsi məsələləri üzrə əmr və sərəncamlarının layihələrini, habelə fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş halların aradan qaldırılması ilə bağlı tədbirlər planlarını hazırlamaq;

3. fövqəladə vəziyyət rejiminin təmin edilməsinə cəlb olunmuş qarovul (patrul) naryadlarının xidmətinin təşkilini və aparılmasını təmin etmək, növbəyə daxil olmazdan əvvəl qarovul (patrul) naryadlarının şəxsi heyətini təlimatlandırmaq, əməkdaşların (hərbi qulluqçuların) zəruri ləvazimatlarla təchiz olunmasına nəzarət etmək;

4. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə qanunçuluğa riayət olunmasının təmin edilməsi və ictimai qaydanın qorunması məqsədilə müvafiq tədbirləri planlaşdırmaq və həyata keçirmək;

5. fövqəladə vəziyyət rejiminin təmin edilməsi üzrə normativ hüquqi aktlar, habelə komendantın əmr və sərəncamları ilə bağlı maarifləndirmə və təbliğat işlərini təşkil etmək;

6. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslərin vəzifəli şəxsləri, vətəndaşlar, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, mülki müdafiə orqanları, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə orqanların (qurumların), fövqəladə vəziyyət rejimini təmin edən orqanların (qurumların) vəzifəli şəxsləri tərəfindən komendantın əmr və sərəncamlarının icra olunmasına, fövqəladə vəziyyət şəraitində tətbiq edilən tədbirlərin və müvəqqəti məhdudiyyətlərin yerinə yetirilməsinə nəzarət etmək;

7. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə fəaliyyət göstərən mərkəzi və yerli icra hakimiyyəti orqanları, həmçinin yerli özünüidarə orqanları ilə qarşılıqlı əlaqəni təmin etmək;

8. fövqəladə vəziyyət rejiminin tətbiq edildiyi ərazidə dislokasiya olunan hüquq mühafizə və digər aidiyyəti dövlət orqanları nümayəndələrinin iştirakı ilə ictimai asayişin və təhlükəsizliyin qorunması işinin təşkilini gündəlik təhlil etmək, hüquq pozuntularının qarşısının alınması üçün müvafiq tədbirlər müəyyənləşdirib həyata keçirilməsini təmin etmək;

9. media nümayəndələri üçün mətbuat konfransları və ya brifinqlər təşkil etmək;

10. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə açıqlanması qanunla qadağan olunan məlumatların açıqlanmasının qarşısının alınması üçün tədbirlər görmək;

11. fövqəladə vəziyyət rejiminin təmin edilməsinə cəlb olunan əmlak və resursların, o cümlədən sərf olunan maliyyə xərclərinin uçotunu aparmaq;

12. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə mövcud vəziyyət barədə gündəlik məlumatların toplanılmasını, ümumiləşdirilməsini və təhlil olunmasını təşkil etmək;

13. fövqəladə vəziyyət rejiminin təmin edilməsində iştirak etmiş şəxslərin qeydiyyatının bu Qaydanın 5.2-ci bəndində nəzərdə tutulmuş qaydada yaradılan birləşmiş əməliyyat qərargahında aparılmasını təşkil etmək;

14. dövlət sirrinin mühafizəsini təmin etmək;

15. Qanuna uyğun olaraq komendantın səlahiyyətlərindən irəli gələn digər vəzifələri yerinə yetirmək.



# "Azərbaycanda valyuta bazarında tarazlıq qorunub" - Baş bankir

***"Bu il Azərbaycanda valyuta bazarında tarazlıq qorunub".***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Bankın sədri Taleh Kazımov Milli Məclisdə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

AMB sədri bildirib ki, cari ilin 9 ayında manatın nominal kredit məzənnəsi 5% bahalaşıb. "Mərkəzi Bankın maliyyə sabitliyi siyasəti və nəzarət tədbirləri maliyyə sektorunda stabil fəaliyyətinə və ödənişlərin fasiləsizliyinə yönəldilib. Bank sektorunun dayanqlılığı bütövlükdə diqqətdə saxlanılıb".

Baş bankir qeyd edib ki, pul siyasəti həyata keçirilərkən məzənnə amilinin inflyasiyaya təsiri nəzərə alınacaq: "Məzənnə sabitliyi isə öz növbəsində tədiyyə balansının vəziyyətindən və həyata keçirilən fiskal-monitar siyasətlərdən asılı olacaq. Proqnozlaşdırılan ixrac qiymətləri 2023-cü il profisitli tədiyyə balansını gözləməyə əsas verir. 2023-cü il 50 ABŞ dolları ssenarisində cari əməliyyat balansının profistinin ÜDM-a nisbətinin 11 faiz olacağı proqnozlaşdırılır".

# Xalqa neftdən gələn gəlirlərdən kömək edilsin - TƏKLİF



***"2021-ci ilin iyulun 1-nə qədər Azərbaycanda məşğul olan əhali sayı 5 milyon 334 min nəfərdir. Bunun da 1 milyon 720 mini dövlət və qeyri-dövlət sektorunda işləyir. Biz bilirik ki, neft sektorunda 30 min insan işləyir. Əvvəl bu rəqəm 80 min idi. Deyin görək, 3.6 milyon insan haradadır? Neynəyir? Nə işlə məşğul olur?"***

"Unikal" xəbər verir ki, bunu deputat Tahir Kərimli Milli Məclisdə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

Deputat bildirib ki, Xəzər boyda dənizimiz var, amma balıqçılıq yoxdur. T.Kərimli neftdən gələn gəlirlərdən xalqa kömək edilməsini təklif edib:

"İnflyasiya arta-arta gedir. Bəzi ölkələrdə neftdən gələn gəlirlərdən əhaliyə birdəfəlik yardımlar edilir. Bizdə niyə edilmir? İnternetin, telefonun, hər şeyin qiyməti artır".

# Zərifə Əliyevanın 100 illik yubileyi qeyd ediləcək

***Prezident İlham Əliyev Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamda bildirilib ki, 2023-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 ili tamam olur.



Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

Səhiyyə Nazirliyinə Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Zərifə Əliyevanın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Xəzər rayonuna 4.4 milyon pul ayrıldı

***Prezident İlham Əliyev Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam imzalayıb.***



"Unikal" xəbər verir ki, Sərəncama əsasən, Bakı şəhəri Xəzər rayonunun Binə, Buzovna, Qala, Mərdəkan və Zirə qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 4,4 milyon (dörd milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyinə bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.



## Azad edilən ərazilərin Baş planlarının hazırlanması yekunlaşır

***"Qarabağ İqtisadi rayonlarında Hadrut, Suqovuşan qəsəbələri, Tuğ və Talış kəndlərinin Baş planlarının hazırlanması yekunlaşmaqdadır".***

"Unikal" xəbər verir ki, bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov "Prezident İlham Əliyevin rəhbərliyi ilə post-konfilikt quruculuğu modeli" mövzusunda keçirilən qələbənin ikinci ildönümü-Zəfər Gününə həsr olunmuş konfransda deyib.

O qeyd edib ki, hazırda tamamilə dağıdılan ərazilərimiz yenidən qurulur. "Qarabağ Azərbaycanın tarixi və mədəni ərazisidir. Orada dayanıqlı məskunlaşmanın həyata keçirilməsi qarşımızda duran əsas məqsədlərdən biridir. Azad edilən ərazilərdə yerli idarəetmənin yeni modeli formalaşdırılmaqdadır".

E.Hüseynov əlavə edib ki, indiyədək 260-dan çox şəxs mina partlayışı nəticəsində yaralanıb və həyatını itirib: "Azad edilən ərazilərin 13 faizi minalardan təmizlənib. Bu proses hazırda da davam etdirilir".

## Diplomatik nümayəndəliklərin saxlanılma xərcləri artırıldı

***Gələn il Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqlarının saxlanılması üçün 130 milyon manat ayrılacaq.***

"Unikal" xəbər verir ki, bu, "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi Zərfi"ndə əksini tapıb.

Qeyd edək ki, bu, 2022-ci illə müqayisədə 4 050 000 manat yaxud 3,2 % çoxdur. 2022-ci ildə dövlət büdcəsindən bu məqsədlə 125 950 000 ayrılıb.

Gələn il beynəlxalq təşkilatlara üzvlüklərlə bağlı ödənişlər 21 milyon manat olacaq.

## Pensiyalar bu tarixdə ödənilacək

***Noyabrın 5-də Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonu üzrə pensiyaların ödənilməsi nəzərdə tutulub.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Sosial Müdafiə Fondu məlumat yayıb.

Qeyd olunur ki, güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları bu ay da qrafik üzrə ödəniləcək.

# "Sülh müqaviləsi Ermənistana sərf edən məsələdir"

## Siyavuş Novruzov: "Ermənistanın xilas yolu Azərbaycan və Türkiyədən keçir, qalan hallarda isə bataqlıqda batacaqlar"

***Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin Soçi görüşündən, İranın Azərbaycan sərhədində keçirdiyi təlimlərdən, Ermənistanın Baş naziri Nikol Paşinyanın İrana səfərinin məqsədindən və başqa məsələlərdən danışıb.***

***-Oktyabrın 31-də Soçidə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın dövlət başçısı Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü olub. Liderlər müzakirələrin sonunda bəyanat imzalayıblar. Bu görüşün nəticələrini necə qiymətləndirirsiz?***

-Bu görüşün nəticələrini yüksək qiymətləndirirəm. Prezident İlham Əliyev Qarabağla bağlı məsələnin nöqtəsini bir daha qoydu. 8 noyabr 2020-ci ildən başlayaraq bu günə qədər eyni xətt üzrə bu məsələ Azərbaycanın tərəfdar olduğu danışıqlarda və protokollarda öz əksini tapıb. Dövlət başçısı bildirib ki, Qarabağ münaqişəsi artıq tarixdə qalıb, iki il bundan əvvəl həll edilib. Buna görə də burada praktiki olaraq müzakirə edilməli məsələ yoxdur. Bu, bir daha ictimaiyyətin və tərəflərin diqqətinə çatdırılıb. Əsas danışıqların isə sülh müqaviləsinin imzalanması və onun detalları üzərində aparılması qeyd olunub. Azərbaycanın təqdim etdiyi 5 prinsip sülh müqaviləsinin hazırlanmasında əsas rol oynayır. Həmçinin, görüşdə Ermənistanın qeyri-adekvat addımları bir daha qeyd olunub. Ermənistanın canfəşanlıq etməsinə baxamayaraq, onların sülhməramlıların mandatının uzadılması barədə təklifləri qəbul edilməyib. Ümumilikdə, bu prosesdə onların ortaya atdıqları heç bir məsələ öz əksini tapmadı. Bunu da Azərbaycanın növbəti uğuru kimi qiymətləndirirəm.

***-İstər Soçidə, istərsə də bundan əvvəlki görüşlərdə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması əsas müzakirə mövzusu olub. Sülh müqaviləsinin nə zaman imzalanacağı gözlənilir?***

-Rusiya Prezidenti Vladimir Putin sülh müqaviləsinin imzalanmasının, kommunikasiyaların açılmasının Ermənistan iqtisadiyyatına böyük təsir göstərəcəyini bildirib. Sülh müqaviləsi Ermənistan ilə Rusiyanın arasında əlaqələrin bərpasına kömək edəcək, bu ölkənin ümumi çıxış imkanları genişlənəcək. Bu da öz növbəsində gələcəkdə onların ölkəsində müxtəlif sahələrin inkişaf etməsinə köməklik göstərəcək. Sülh müqaviləsi Ermənistana sərf edən məsələdir. Belə ki, həm Azərbaycan, həm də Türkiyə ilə ikitərəfli münasibət əldə edəcəklər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, Azərbaycanın şərtləri yerinə yetirilsə, sərhədləri açmağa hazırdırlar. Beləliklə, Ermənistan bir çox kommunikasiya əldə edəcək. Doğrudur, buna təsir edən qüvvələr də var. Bizim digər qonşumuz İran bu məsələlərə təsir göstərməyə çalışır. Əslində, kommunikasiyaların açılması onların özünə də xeyirdir. Zəngəzur dəhlizinin açılması, İranın da bu proseslərə qoşulması, onlara qarşı olan blokadanın qarşısının alınmasına köməklik göstərəcək. Təəssüflər olsun ki, bunu kənara qoyub, daxili iddialar, Azərbaycanı gözügötürməməzlik və başqa belə maraqlardan çıxış edirlər. Ermənistana qardaş dövlət kimi baxırlar. Bütün bunlar sülhün gecikməsinə səbəb olur. Ümumilikdə, sülh müqaviləsinin bu ilin sonuna qədər imzalanması planlaşdırılır. Ola bilər ki, bir az geciksin. Bu da qarşı tərəfin hazırlıq məsələlərindən asılıdır.

***- Ermənistanın Baş naziri Nikol Paşinyan Soçi görüşündən sonra İrana səfər etdi və orada bu ölkə ilə bir sıra sənədlər imzaldı. Belə desək, İran növbəti dəfə Ermənistana qucaq açdı. Sizcə, bu səfərin məqsədi nədir?***

-Azərbaycanda gözəl bir atalar sözü var ki, cəhənnəmə gedən özünə yoldaş axtarır. Ermənistan dərk etməlidir ki, dünyanın aparıcı qüvvələri İrana qarşıdır. Belə olan halda, bu ölkə ilə müqavilə imzalamaları Ermənistanın özünə ziyandır. Buraya ticari-iqtisadi əlaqələr qurulması, silah alınması və s. məsələlərin hamısı daxildir. Ermənsitanın müxtəlif ölkələrin qabağına qaçması heç bir effekt verməyəcək. Bunun ən yaxşı yolu Azərbaycanla sülh müqaviləsinin imzalanmasıdır. Ermənistanın xilas yolu Azərbaycan və Türkiyədən keçir. Qalan hallarda isə bataqlıqda batacaqlar.



***-İranın ölkəmizə qarşı olan münasibətinə siz də toxundunuz. Bir neçə gün əvvəl ölkəmizin sərhədlərində təlimlər keçirilməsi, Azərbaycana qarşı səslərdirilən fikirlərin məqsədi nədir?***

-Onların təlimlər keçirməsi güc nümayişi idi. Əslində isə biabırçılıq oldu. İlk növbədə ortaya hər hansı bir texnika çıxarılmadı. Olanlar da 1960-cı illərin texnikaları idi. Belə ki, göstərilənlər ya İran İslam İnqilabına qədər, ya da Körfəz müharibəsində İran tərəfinə keçən silahlar idi ki, dünyada artıq onları ixtisar ediblər. Onlar dəmir parçası ("metallom") kimi istifadə olunur. Araz çayı üzərində körpülər salınmasına baxanda görünürdü ki, nə qədər primitivdir. 1941-45-i illərdə həmin körpüləri bundan yaxşı salırdılar. Əslində, Araz çayı üzərində hansı körpüdən söhbət gedə bilər? İndiki dünya texnikasına nəzər salsan, bu cür çaylarda körpüyə ehtiyac yoxdur. Bununla Azərbaycana güc nümayiş etdirmək istəyirlər. Azərbaycanın kifayət qədər strateji tərəfdaşı var. Digər tərəfdən, Cənubda 40 milyondan artıq azərbaycanlı yaşayır ki, onların da 70 faizi ordudadır. Azərbaycana güc göstərməyin heç bir mənası yoxdur.

***-İranda bir neçə müddətdir etiraz aksiyaları keçirilir. Bu aksiyalar nə ilə nəticələnə bilər?***

-Bu aksiyalarda söhbət bir nəfərin ölümündən getmir. Artıq İranda aksiyalarda ölənlərin sayı 300-ü ötüb. Bununla yanaşı, xeyli aksiya iştirakçısı həbs olunub. Burada söhbət odur ki, insanlar bu rejimdən yoruliblar. Etiraz aksiyaları idarəetmə sisteminə qarşıdır. Yəni, aksiyalar tək bir insanın ölümü ilə bağlı deyil. Doğrudur, qızın ölümü bu aksiyaların başlaması üçün qığılcım oldu. Artıq insanlar İranda bu vəziyyətdə yaşamaq istəmirlər. Aksiyalar isə getdikcə genişlənir. Repressiyalara baxmayaraq, aksiyalara qoşulanların sayı artır. İran İslam İnqilabından sonra bu ölkədə olan ən böyük iğtişaşlardır.

***-Bu günlərdə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Mədəniyyət Nazirliyində əməliyyat keçirib. Məlumata görə, nazirliyin bir neçə vəzifəli şəxsi istintaqa cəlb olunub. Belə deməк olar ki, gənc kadrlar arasında da əyri yola gedənlərə rast gəlinir. Onlar nə üçün özündən əvvəlki şəxslərin aqibətindən nümunə götürmür?***

- Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Nazirliyində keçirdiyi əməliyyatla bağlı istintaq gedir. Yəqin ki, səbəbləri barədə açıqlama veriləcək. Azərbaycanda korrupsiyaya qarşı ciddi mübarizə gedir. Bu, yerli, mərkəzi icra hakimiyyəti orqanlarını, güc strukturlarını və digər sahələri əhatə edir. Hesab edirik ki, həm inzibati metodla, həm də ictimai qınaqla bunların qarşısı alınacaq. Əyri yollara gedənlərin olmasına gəlincə, bu, təyin olunmanın müddəti ilə deyil, insanın xisləti, tamahkarlığı ilə bağlıdır. Təyinat məsələsinə gəlincə, belə hallara yol verənlər arasında yaşlı məmurların olduğu kimi, gənclər də var. Bir də görürsən, gənc daha pis əməllərə yönəlir, nəinki yaşlı nəslin nümayəndəsi. Hər kəs özünə və strukturuna cavabdehlik daşıyır. Strukturda hansısa hadisə baş verirsə, avtomatik olaraq həmin qurumun rəhbəri buna cavabdehdir. Bəzi hallarda strukturdan kənarda baş verən hadisələr də olur. Yaxud, iki nəfər arasında elə hadisə ola bilər ki, struktur rəhbərinin o barədə məlumatı olmaz. Amma bilib, nəticə çıxarmırsa, təbii ki, məsuliyyət daşıyır.

***Anar Kəlbiyev***

# Monopolistlər yenə iş başında...

## Azərbaycanda 21 faizlik inflyasiyada inhisarçıların payı nə qədərdir?

***İqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında 2023-cü ilin dövlət büdcə layihəsinin müzakirələri zamanı bildirib ki, ölkədə inflyasiyanın səviyyəsinə dünya bazarında ərzaq məhsullarının qiymətində baş verən artım təsir edib. "Ötən illə müqayisədə cari ilin yanvar-avqust aylarında idxal qiymətləri 21 faizdən çox artıb", - deyə nazir bildirib.***

Eyni iclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli isə bildirib ki, inflyasiyadan danışılır, bunun səbəblərindən də danışmaq lazımdır. "Bunu yaradan amillər sırasında monopoliya var, amma adı çəkilmir. Azərbaycanda monopoliyanın mövcudluğu süni bahalaşmanın yaranmasına səbəb olur", - deyə deputat vurğulayıb.

Şübhəsiz ki, hazırda bahalaşma dünyada ən önəmli problemlərdən birinə çevrilib. Ümumiyyətlə isə son illərdə bütün dünya üzrə inflyasiya artımı bir növ dönməz hal alıb. Proses həm ərzaq, həm də qeyri-ərzaq məhsulları üzrə müşahidə edilməkdədir. Mal və xidmətlərin sürətlə bahalaşması ciddi narahatlıqlar yaradır və əksər ölkələrdə problemlərlə müşayiət olunur. Azərbaycanda inflyasiyanın yüksəlməsində qlobal inflyasiyanın rolu, əlbəttə, birmənalıdır. Lakin burada yerli amili də unutmaq olmaz. Söhbət Əli Məsimlinin də vurğuladığı kimi monopoliya faktorundan gedir. Həmin faktoru bariz şəkildə ortaya qoyan sadə bir məqamı xatırladaq: dünya bazarında hansısa bir məhsulun qiyməti qalxanda ölkəmizdə də dərhal qalxır, ancaq... Ancaq eyni məhsulun qiyməti dünya bazarında aşağı düşəndə Azərbaycanda qiymət aşağı düşmür. Bu, ölkəmizin əmtəə bazarında inhisarçıların hələ də ciddi mövqelərə sahib olduğunu təsdiqləyir. Elə bir neçə gün öncə başqa bir deputat Vahid Əhmədov da Azərbaycanda müşahidə edilən bahalaşmada subyektiv amilə - monopolizmə diqqət çəkmişdi. Sitat: "Azərbaycan xaricdən kifayət qədər məhsul, xüsusilə ərzaq və qeyri-ərzaq məhsulları idxal edir. Dünya bazarında da qazla əlaqədar ciddi problem yaranıb. Neftlə bağlı da böyük problem var. Qiymətlər qalxıb. Bu səbəbdən, hətta bəzi ölkələrdə bir sıra fabriklər işlərini dayandırıblar. Yəni qiymət artımı bütün dünyada baş verir. Bu obyektiv səbəblərdir. Subyektiv səbəblərə gəlincə, bəzi sahibkarlar, möhtəkirlər heç nəyə baxmadan qiymət artımına yol verirlər. Bu da problemdir. Düzdür, bu istiqamətdə, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən müəyyən tədbirlər görülür. Amma bu tədbirləri daha da genişləndirmək lazımdır".

Deputat ölkədə süni qiymət artımının kifayət qədər yayıldığını da vurğulamışdı. Sitat: "Müşahidə edirəm, hətta quş əti məhsullarında da artım var. 20 faiz deyirlər, xeyr, həddən artıq çoxdur. Əvvəllər bahalaşmanı ayda hiss edirdiksə, indi gündə, həftədə hiss edirik..."

Bu günlərdə Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, deputat Tahir Rzayev də ölkədə ətin qiymətinin yüksəlməsindən danışarkən inhisarçılığa da işarə vurmuşdu. "Heyvanların rayondan alınıb şəhərə gətirilməsində monopoliya var" - deyə Tahir müəllim bildirmişdi.

Bir sözlə, ölkədə əksəriyyət Azərbaycandakı 21 faizlik inflyasiyada monopolistlərin də ciddi payı olduğu fikrində həmrəydir. Dünya bazarlarındakı bahalaşmanın ölkəmizdən yan keçməsini əlbəttə ki, gözləmək sadəlövhlük olardı. Azərbaycan qlobal iqtisadiyyatın bir parçasıdır və dünyadakı neqativ proseslərdən, şübhəsiz, təsirlənir. Lakin bu bizə inhisarçıların da fürsətdən faydalanıb qiymətləri süni şəkildə artırdırdığı reallığını görməzdən gəlməyə imkan verməməlidir. Ona görə də



monopolizmə qarşı mübarizənin daha da gücləndirilməsinə ciddi ehtiyac var. İnhisarçılıq aradan qaldırılmalıdır ki, obyektiv səbəblərdən baş verən bahalaşmanın üzərinə bir də kiminsə öz maraqları naminə yaratdıqları qiymət artımı (daha doğrusu, süni qiymət artımı!) əlavə olunmasın, nəticədə əhali ikiqat əziyyət çəkməsin.

Hər halda ümid edək ki, aidiyyatı qurumlar cəmiyyətin bu istiqamətdəki narahatlıqlarına həssas yanaşacaq, ən azından deputatların sözügedən mövzuda çıxışlarından lazımi nəticə çıxaracaqlar.

Ümid edirik, çünki ümid kasıbın ən ləziz yeməyidir...

*Toğrul Əliyev*

# Ağdamda tələ-minası aşkarlandı

***Ağdamda dörd minadan ibarət tələ-minası aşkarlanıb. Bu barədə "Unikal"a Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat Xidmətindən bildirilib.***



Bildirilib ki, Ermənistanın quraşdırdığı mina sahələrinin miqyası, kütləviliyi, eləcə də yüksək və ölümcül partlayışın baş verməsi məqsədilə basdırdığı tələ-minaları mülki əhaliyə qarşı yönələn terrorun təzahürüdür. 2022-ci 2 noyabr tarixində Cəbrayıl rayonunun Mehdili kəndində baş verən hadisə zamanı 1972-ci il təvəllüdlü Əhmədov İlqar Heybət oğlu növbəti mina partlayışının qurbanı olub.

ANAMA tərəfindən aparılan təmizləmə əməliyyatları zamanı mütəmadi olaraq tələ minaları, ölüm ehtimalını artıran minasürprizlərə rast gəlinir.

Belə ki, Ağdam rayonunun Orta Qərvənd kəndi ərazisində aparılan təmizləmə əməliyyatları zamanı mülki təyinatlı ərazilərin ətrafında 1 ədəd tank əleyhinə TM-62P3 minasının üzərinə 1 ədəd piyada əleyhinə PMN-2 minasının, eləcə də 3 ədəd üst-üstə yerləşdirilən tank əleyhinə TM-62P3 minasının üzərinə 1 ədəd piyada əleyhinə PMN-2 minasının yerləşdirilməsi faktları aşkar edilib.

Qeyd edək ki, tərkibində 7 kq partlayıcı maddə olan tank əleyhinə mina texnikanın sıradan çıxarılması üçün nəzərdə tutulub. Aşkar olunan tank və piyada əleyhinə minalardan ibarət üst-üstə qoyulan tələ-minalarının partlayışı nəticəsində nəinki insanın sağ qalma ehtimalı, hətta texnikanın hər hansı bir hissəsinin yararlı halda qalması sıfıra bərabərdir.

"ANAMA vətəndaşlara bir daha müraciət edərək bildirir ki, təhlükəsizliyinə əmin olmadıqları ərazilərə daxil olmasınlar, yalnız təyin olunan marşrutlardan istifadə etsinlər. Rast gəldikləri naməlum əşyalara toxunmaq, zərbə yetirmək və ya müdaxilə etmək qəti qadağandır!", - məlumatda qeyd olunub.

# "Dövlət nəzarəti inflyasiyanı kifayət qədər cilovlayır" - Nazir



***"İnflyasiyaya təsir edən bir sıra amillər dövlət tərəfindən tənzimlənir".***

"Unikal" xəbər verir ki, bunu maliyyə naziri Samir Şərifov Milli Məclisdə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

Nazir bildirib b ki, başqa ölkələrdə yanacaq qiyməti inflyasiyaya ciddi təsir edir: "Azərbaycanda isə belə deyil, bu istiqamətdə dövlət nəzarəti inflyasiyanı kifayət qədər cilovlayan amildir".

# "Türkiyədə olan dərman Azərbaycanda 7-8 dəfə baha satılır" - Deputat

***"Büdcənin xərc siyasətinə baxanda prioritet sahədə müdafiə, səhiyyə, təhsildir".***



"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputat Vahid Əhmədov deyib.

Deputat Azərbaycanda süni qiymət artımı olduğunu bildirib: "İnflyasiya nə qədər olsa da, süni qiymət artımı daha çoxdur. Biz bir neçə təklif verdik. Ərzaq məhsullarının ƏDV-si endirilsin. Buna getmək lazımdır. Biz nə qədər maaşları artırsaq da, artan inflyasiyanın qarşısını ala bilməyəcəyik. Sosial müdafiədən söhbət gedirsə, hamı pul alır. Bu da nəzərə alınmalıdır. Bizi narahat edən, əsasən, aztəminatlı təbəqədir. Bu təbəqəyə şərait yaratmaq lazımdır ki, ən azından özlərini gündəlik ərzaqla təmin edə bilsin. Baxmayaraq ki, bu qiymətlər dövlət tərəfindən tənzimlənir. Bu sahədə ciddi monitorinqlərə ehtiyac var. Necə olur ki, Türkiyədə olan dərman Azərbaycanda 7-8 dəfə baha satılır? Bu, əhalini ən çox narahat edən problemdir".

Deputat bank faizlərinin də yüksək olduğunu diqqətə çatdırıb: "Sahibkarların əsas problemi kredit faizlərinin yüksək olmasıdır. Azərbaycanda niyə İnvestisiya Fondu yoxdur? Azərbaycanda investisiya fondları yaradılmalıdır, vəsaitlərdən istifadə etmək lazımdır. 20%-lə kredit verirlər. Bu, çox ciddi problemdir. Bank sahəsində digər ciddi problem girov məsələsidir. 5 il girov götürürlər. Bəs sahibkar 5 il nə etsin? Kredit məsələsini həll etmək lazımdır. Rayonlarda hamı istəyir taxıl əksin. Amma adamların vəsaiti yoxdur".



## Səhiyyə naziri pandemiyadan danışdı

***COVID-19 pandemiyası hər bir ölkənin özünü tibbi məhsulları ilə təmin etməsinin strateji məsələ olduğunu önə çıxarıb.***

Bunu səhiyyə naziri Teymur Musayev cümə axşamı ”Medinex” və ”Beauty Azerbaijan” sərgisinin açılış mərasimində çıxışı zamanı deyib.

”Azərbaycanda fəaliyyət göstərən tibb müəssisələri ən son müasir texnoloji avadanlıqlarla təchiz olunur və maddi-texniki baza gücləndirilir. Tibb mütəxəssislərinin peşəkarlıqlarının artırılması istiqamətində görülən işlərə xüsusi diqqət ayrılır. İnnovativ məhsulların tanıdılmasına yönəlmiş sərgilərin keçirilməsini yüksək qiymətləndiririk. 2023-cü ildə səhiyyə və tibb elmi sahəsində nüfuzlu beynəlxalq elmi nəşrlərin tanıdılmasına həsr olunan tədbirin təşkilini təklif edirəm. Səhiyyə Nazirliyi belə bir tədbirin təşkili üçün lazımi dəstəyi verməyə hazırdır”, - deyə T. Musayev əlavə edib.

## Tələbə kreditinin verilməsi üçün əlavə vəsait ayrılacaq

***Tələbə kreditinin verilməsi üçün növbəti il üçün dövlət büdcəsindən 8 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının 2023-cü ilin dövlət və icmal büdcələri üzrə layihədə qeyd olunub.

Bildirilib ki, 2021-ci və 2022-ci illərdə ayrılmış vəsaitləri də nəzərə aldıqda, ümumilikdə Təhsil Tələbə Kredit Fondunun resurs zərfi 110 milyon manat təşkil edəcək.

## Azərbaycanda bu sahə ƏDV-dən azad olunur

***Yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verilməsi ƏDV-dən azad olunur.***

”Unikal”ın məlumatına görə, bu barədə Azərbaycan Respublikasının 2023-cü ilin dövlət və icmal büdcələri üzrə layihədə qeyd edilib.

Sənəddə bildirilib ki, yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə vermə sahəsində fəaliyyət göstərən orqan (qurum) tərəfindən yaşayış sahələrinin kirayəçilərə təqdim edilməsinin ƏDV-dən azad olunması nəzərdə tutulur.

Ümumilikdə 2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 30,7 milyard manat proqnozlaşdırılır ki, bu da ölkə tarixinin ən yüksək göstəricisi olmaqla, 2022-ci illə müqayisədə 5,2 faiz, 2021-ci illə müqayisədə isə 16,4 faiz çoxdur.

## Bu ərazilərdə işləyən mütəxəssislər yüksək maaş alacaq

***Azad edilən ərazilərdə işləyən mütəxəssislər yüksək maaş alacaqlar.***

”Unikal” xəbər verir ki, bununla bağlı Əmək Məcəlləsinə dəyişiklik edilir.

Təklif olunan dəyişikliyə əsasən, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərə əmək haqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımlar (əmsallar) müəyyən ediləcək. Əmək haqqına belə artımların (əmsalların) məbləğinin minimum miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunacaq. Qeyd edək ki, dəyişiklik layihəsi qəbul olunacağı təqdirdə 2023-cü ilin yanvarın 1-dən qüvvəyə minəcək.

# Sabiq deputat bankını kürəkəninə təhvil verir

## Əhməd Vəliyevin ailə ASC-si gözlənilmədən böyüməyə başlayıb



***“Muğanbank” ASC-nin səhmdarlarının pay bölgüsündə dəyişiklik olub.***

Bu, Bankın nizamnamə kapitalının 5 milyon manat və yaxud 4,9% artırılaraq 102,5 milyon manatdan 107,5 milyon manata çatdırılmasından sonra baş verib.Belə ki, kapital artımı üçün dövriyyəyə buraxılmış, hər birinin nominal dəyəri 200 manat olan 25 min ədəd yeni adi, sənədsiz, adlı səhmin hamısını “Muğanbank”ın Müşahidə Şurasının sədri Elmir Mehdiyev əldə edib. Bununla da, o, Bankdakı payını 66,17%-dən 67,74%-ə çatdırıb.

Əvəzində digər 3 səhmdarın payı azalıb. Belə ki, Maqbet Mehdiyevin payı 12,14%-dən 11,58%-ə, Vəfa Vəliyevanın payı 11,17%-dən 10,65%-ə, Fəridə Mehdiyevanın payı isə 10,52%-dən 10,03%-ə düşüb.

”Unikal” qəzetinin araşdırması nəticəsində məlum olub ki, ”Muğanbank”dakı payını daha da artıran Elmir Mehdiyev ”Odlar Yurdu” Universitetinin rektoru, sabiq deputat Əhməd Vəliyevin kürəkənidir. Cəmiyyətdə adıçəkilən bank məhz Vəliyevin bankı sayılır.

Bu da səbəbsiz deyil.

Belə ki, ”Muğanbank”ın digər səhmdarları da elə eks-deputatın ailə üzvləridir. Bir az da dəqiqləşdirsək, həmin səhmdarlardan Vəliyeva Vəfa Əhməd qızı onun övladı, Maqbet Mehdiyevlə Fəridə Mehdiyeva isə qudalarıdır.

E.Mehdiyevin bankdakı payını daha da yüksəltməsi Ə.Vəliyevin ”Muğanbank”ı tamamilə kürəkəninə təhvil verdiyinə dair qənaətlərin yaranmasına səbəb olub. Onu da deyək ki, son illər mətbuatda ”Muğanbank”ın da çətin maliyyə vəziyyətinə düşdüyü, banka Mərkəzi Bank tərəfindən xəbərdarlıq edildiyi, bağlanma ehtimalının yarandığı və s. barədə məlumatlar yer alıb. Bu da təsadüfi sayılmır, çünki bankın maliyyə göstəriciləri son illərdə onun vəziyyətinin qənaətbəxş olmadığından xəbər verirdi. Elə Ə.Vəliyevin bankının 2019-cu ilin ilk 9 ayını 8 milyon 254 min manat xalis zərərlə qapatması, 2020-ci ilə isə vur-tut 707 min manat xalis mənfəət ilə bağlaması belə düşünənlərin arqumentini gücləndirirdi.

Lakin bu ilin əvvəlində məlum oldu ki, “Muğanbank” 2021-ci ili 1 milyon 552 min manat xalis mənfəət ilə başa vurub. Beləliklə, “Muğanbank”ın xalis mənfəəti 2020-ci illə müqayisədə 2021-ci ildə 2,1 dəfə və ya 845 min manat artıb. Xalis mənfəətin artmasının səbəbi kimi gəlirlərin artması göstərilirdi.

Bundan başqa, ötən il S&P Global Ratings beynəlxalq reytinq agentliyinin ”Muğanbank” üzrə uzun və qısamüddətli emitent kredit reytinqlərini ’”CCC + / C”dən ”B- / B” səviyyəsinə yüksəltməsi, banka dair proqnozunu isə sabit olaraq qiymətləndirməsi sabiq deputat və rektorun bankı üçün çətin günlərin arxada qaldığını düşünmək üçün əsas yaradırdı. Bununla belə, beynəlxalq reytinq agentliyinin məlumatında ”Muğanbank” üçün müəyyən risklərin qaldığı da vurğulanmışdı. Elə növbəti 12 ay ərzində bankın franşizasının rentabelli böyümə ilə nəticələnmədiyi və aktivlərin keyfiyyətindəki yaxşılaşma tendensiyasının əksinə olacağı təqdirdə mənfi reytinqin yarana biləcəyi, depozitlərin bankdan axını baş verdikdə, likvidliyin zəifləyəcəyi barədə proqnozlar da bunu söyləməyə imkan verirdi. Hətta bir ara sabiq deputat və rektorun bankının kiçilməsi, hüquqi şəxslərin bu bankdakı, ardınca “Muğanbank”ın özünün də digər banklardakı vəsaitlərini çəkməsi və sonuncunun səbəbi olaraq bunun maliyyə çətinliyi ilə izah edilməsi belə düşünməyə əsas yaradırdı ki, Əhməd Vəliyevin adıçəkilən ASC-si üçün işlər hələ də tam qaydasında deyil.

Ancaq sabiq deputatın bankı 2022-ci ilin 9 ayını (yanvar - sentyabr) 703 min manat xalis mənfəət ilə başa vurmağı bacarıb. Bankın xalis mənfəəti 2021-ci ilin 9 ayı ilə müqayisədə 2022-ci ilin 9 ayında 101 min manat və ya 16,8% artıb. Halbuki bank ötən ilin eyni dövründə 602 min manat xalis mənfəət əldə etmişdi.

Rəsmi məlumata əsasən, ”Muğanbank”ın cari ildəki xalis mənfəəti gəlirlərinin artmasından qaynaqlanır. Üstəlik, bu ilin ilk 9 ayında sabiq deputatın bankı xeyli böyüyüb - belə ki, 30 sentyabr 2022-ci il tarixində ”Muğanbank” ASC 743 milyon 515 min manat cəmi aktivlərə malik olub. Halbuki o, 2021-ci ilin sonunda 708 milyon 452 min manat cəmi aktivlərə malik idi.

”Muğanbank”ın depozit portfeli isə 2022-ci ilin 9 ayında 2021-ci ilin sonu ilə müqayisədə 13 milyon 373 min manat və ya 3,4% artaraq 410 milyon 224 min manata çatıb.

30 sentyabr 2022-ci il tarixində ”Muğanbank” 103 milyon 562 min manat məcmu kapitala malik olub ki, bu da minimal tələbdən (50 milyon manat) 2 dəfə çoxdur.

Bir sözlə, keçmiş deputatın bankında işlərin qaydasına düşdüyü görünür, bütün bunlarda onun əsas səhm sahibi olan kürəkəninin hansı həlledici rol oynadığı isə bəlli deyil...

***Sənan Mirzə***

# Alimpaşa Məmmədovun müsadirə edilən 10 milyonluq əmlakının sirləri

## Həbsdəki sabiq icra başçısı gözqamaşdıran sərvətə hansı yollarla sahib olub? - İlginc təfərrüatlar...



***Yola salmaq üzrə olduğumuz həftə xəbər yayıldı ki, Şəmkir Rayon İcra Hakimiyyətinin həbsdə olan sabiq başçısı Alimpaşa Məmmədovun bir sıra əmlakları üzərinə həbs qoyulub.***

APA-nın əldə etdiyi xəbərə görə, bazar dəyəri 10 milyon manat qiymətləndirilmiş həmin əmlaklar aşağıdakılardır:

1. "Azfarel" MMC balıqyetişdirmə və emalı müəssisəsi (bazar dəyəri 8 milyon 270 min manat)
2. "Abad Şəmkir" MMC-yə məxsus daşınan və daşınmaz əmlaklar (bazar dəyəri 1 milyon 335 min manat)
3. Bakı şəhərində yerləşən iki mənzil (bazar dəyəri 676 min manat)

Xatırladaq ki, Alimpaşa Məmmədov ötən ilin aprel ayında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində həbs olunub.

Sabiq icra başçısı Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 və 311.3.3-cü (təkrar, külli miqdarda rüşvət alma) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

İş üzrə ibtidai istintaq bitərək baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

"Unikal"ın araşdırması nəticəsində həbsdəki sabiq icra başçısının yuxarıda bəhs olunan əmlakları nə vaxt, necə, kimlər vasitəsilə əldə etdiyinə dair bəzi təfərrüatlar ortaya çıxıb. Məsələn, məlum olub ki, vaxtilə Şəmkir Bələdiyyəsi tərəfindən təsis edilmiş, mülkiyyətində 967 min manat dəyərində qida məhsulları istehsalı zavodu olan "Abad Şəmkir" MMC-nin bütün paylarını Alimpaşa Məmmədov öz oğluna, üstəlik, cəmi-cümlətanı 180 manata satdırıb.

Bildirək ki, respublikada ilk dəfə olaraq Şəmkirdə 42 bələdiyyənin nəzdində 45 məhdud məsuliyyətli cəmiyyət təsis edilib. Bu isə 2014-cü ilin dördüncü rübünə - Alimpaşa Məmmədovun icra başçısı təyin edildiyi ilə təsadüf edirdi. Rayonun ən böyük bələdiyyəsi olan Şəmkir bələdiyyəsinin nəzdində üç MMC - "Ceyrançöl", "Abad Şəmkir" və "Morul Tikinti" müəssisələri fəaliyyət göstərib. "Abad Şəmkir" MMC-yə məxsus Şəmkir Ağ dağlar adlanan ərazisdə "Natural" su və konserv məhsulları istehsal edən zavodu isə 2015-ci ildə tikilib. Mətbuatda yayılan iddialara görə, həmin vaxt zavodun tikintisi üçün "Atabank"dan 10 il müddətinə 700 min manat kredit götürülüb.

Sabiq başçı "Az Forel" MMC-ni də maraqlı yolla qurub. Belə ki, o, korrupsiya və rüşvət yolu ilə əldə etdiyi 832 min manatı oğlu Adil Adilzadənin adına təsis etdiyi "Az Forel" MMC-nin xərclərinə yönəltməklə həmin pul vəsaitlərini leqallaşdırıb.

Bu müəssisə 2018-ci ildə fəaliyyətə başlayıb. Balıqartırma müəssisəsi Şəmkirçay Su Anbarının sahilində yerləşir. "Az Forel" altı hektar ərazini əhatə edir. 2018-ci ildə müəssisənin tikintisinə üç milyon manat kapital qoyulsa da, ümumi investisiya dəyəri 43 milyon manat olduğu qeyd edilib. Bu barədə Alimpaşa Məmmədovun özü 2018-ci ildə rayonun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə çıxışında bildirib.

Alimpaşa Məmmədovun həbsindən bir müddət sonra onun oğlu Adil Adilzadənin bu şirkətdən tamamilə kənarlaşdırıldığı deyilir.

Onu da deyək ki, yuxarıda haqqında bəhs edilən əmlaklardan başqa həbsdəki sabiq icra başçısının qanunsuz şəkildə yiyələndiyi bir MMC-dən də bəhs olunur. Bu onun icra başçısı olarkən vəzifəsindən sui-istifadə edərək yenə də oğlunun (Adil Adilzadənin) adına yaratdığı "Şəmkir Səbət Ticarət Mərkəzi" MMC-dir. Kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən "Şəmkir Səbəti" "Çinarlı qəsəbə" MMC-nin nəzdində təsis edilib. 2017-ci ildə bu müəssisənin açılışı olub. Açılış mərasimində Alimpaşa Məmmədov da iştirak edib.

Məlumat üçün bildirək ki, "Şəmkir Səbəti" ticarət mərkəzi Bakı-Qazax avtomobil yolunun 391-ci kilometrliyində yerləşir. Ticarət obyekti beş hektar ərazini əhatə edir. Obyektin ərazisində 147 ədəd ağac konstruksiyasından ibarət butiklər, sahəsi 7000 kvadrat metrə yaxın topdan satış ticarətin təşkili üçün qapalı sahələr, sahəsi 500 kvadrat metrdən ibarət "Ailəvi istirahət" yeməkxana binası, beş ədəd soyuducu anbar inşa olunub. Eyni zamanda, "Şəmkir Səbəti" ticarət mərkəzinin nəzdində "Şəmkir Səbəti Supermarket" də var ki, Alimpaşa Məmmədov bu obyektin də açılışında qırmızı lenti kəsib. Həmin MMC-nin hazırkı və bundan sonrakı aqibətinin necə olacağı barədə hələlik məlumat yoxdur. Lakin onun da üzərinə həbs qoyulması tamamilə realdır.

***Sənan Mirzə***

# "Xarici amillərin təsiri altında inflyasiya yüksəlib" - Samir Şərifov



***"Ötən ildən başlayaraq xarici amillərin təsiri altında inflyasiya yüksəlib. Bu ilin yanvar-avqust aylarında inflyasiya 13 faizdən artıq olub".***

"Unikal" xəbər verir ki, bunu maliyyə naziri Samir Şərifov Milli Məclisdə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

Nazir bildirib ki, Azərbaycanın əsas strateji tərəfdaş ölkələrində milli valyutaların dəyərsizləşməsi, hazırda qlobal səviyyədə müşahidə olunan yüksək inflyasiya öz təsirlərini göstərməkdədir.

S.Şərifov əlavə edib ki, yüksək inflyasiya Azərbaycanın dövlət büdcəsindən layihələrə ayrılan vəsaitlərin artmasına səbəb olur:

"Artan xərclər dünya bazarında neft və qazın münbit qiymətləri nəticəsində əldə olunan gəlir artımının məhz bu istiqamətdə yönəldilməsini zəruri edir".

# Nazir dərman çatışmazlığından danışdı



***"Heç bir dərman vasitəsi ilə bağlı çatışmazlıq yoxdur".***

"Unikal" xəbər verir ki, bunu səhiyyə naziri Teymur Musayev jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, bəzi dərmanların, əsasən də sirop formasında olanların bazada azalmasının Azərbaycanla heç bir əlaqəsi yoxdur:

"Bilirsiniz ki, istehkakçılar dərmanlarda bəzi baza maddələr istifadə edirlər. Həmin maddələrin azalması səbəbindən də dərman istehsalı aşağı düşüb. Son bir həftə ərzində bu məsələ aradan qaldırılıb. Hazırda həmin dərmanlar da ölkəyə gətirilir. Ukraynada olan vəziyyətlə əlaqədar olaraq mart ayında Nazirlər Kabinetinin tapşırığı ilə alternativ bazarlar müəyyən olunub və oradan gələn dərmanlar alternativ bazarlardan təmin edilir. Bununla əlaqədar heç bir korluq yoxdur".

# Şəhidlərin ailə üzvləri üçün yeni güzəştlər müəyyənləşir

***Şəhidlərin ailə üzvləri üçün yeni güzəştlər tətbiq olunacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Vergilər Məcəlləsinə təklif edilən dəyişiklikdə qeyd olunub.

Dəyişikliyə əsasən, şəhid statusu verilmiş şəxsin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının əməkhaqqı gəlirləri ilə bağlı 800 manat məbləğində vergi güzəşti veriləcək.

# "Bu, Azərbaycan tarixində ən yüksək göstəricidir" - Mikayıl Cabbarov

***"Hazırda dünyada mövcud olan neft və qaz qiymətləri ilin sonuna qədər davam edərsə, cari ilin sonuna Azərbaycanın ümumi daxili məhsulunun (ÜDM) həcminin 130 milyard manata çatması gözlənilir və bu da Azərbaycan tarixində ən yüksək göstəricidir".***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisdə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

Nazir bildirib ki, Azərbaycanda ÜDM-də qeyr-neft sənayesinin payı artmaqdadır. O əlavə edib ki, ölkədə vergi daxilolmaları, məcburi dövlət sosial sığorta yığımları artıb. "Ölkədə inflyasiyanın səviyyəsinə dünya bazarında ərzaq məhsullarının qiymətində baş verən artım təsir edib. Ötən illə müqayisədə cari ilin yanvar-avqust aylarında idxal qiymətləri 21 faizdən çox artıb. Cari ildə hökumət tərəfindən anti-inflyasiya tədbirləri həyata keçirilib", - deyə M.Cabbarov qeyd edib.



# DOST Agentliyi ilə AƏSMA arasında memorandum imzalandı

***Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) ilə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası arasında birgə əməkdaşlığa dair Anlaşma memorandumu imzalanıb.***

"Unikal" xəbər verir ki, sənədi DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru Hüseyn Qaraşov imzalayıblar.

DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov imzalanan memorandumun hər iki qurum üçün müsbət nəticələr gətirəcəyini qeyd edib. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru Hüseyn Qaraşov memorandumun qarşılıqlı əməkdaşlığın geniş spektrlərini əhatə edəcəyini bildirib.

Memoranduma əsasən, tərəflər qarşılıqlı təcrübə mübadiləsi, birgə proqramların təşkili, tələbələrin sosial xidmətlər sahəsində bilik və bacarıqlarının formalaşdırılması istiqamətində əməkdaşlıqla bağlı razılığa gəliblər. Memorandum innovativ təşəbbüslərin həyata keçirilməsini, araşdırma, statistika və təhlillərin aparılmasını və digər məsələlər üzrə birgə fəaliyyətin təşkilini də əhatə edir.

Razılaşma çərçivəsində Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının bakalavr və magistr tələbələrinin müxtəlif könüllü və təcrübə proqramlarında iştirakı təmin ediləcək. Bununla yanaşı, Agentliyin əməkdaşlarının və Universitetin müəllim və tələbələrinin birgə təlim proqramlarında iştirakı barədə razılıq əldə olunub.

# Qazaxıstanın Akkreditasiya və İAAR-ın üzvləri ATMU-da

***Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) və Qazaxıstanın Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyi (İAAR) arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, ATMU rəhbərliyinin iştirakı ilə keçirilən dəyirmi masada əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb. İAAR-ı təmsil edən nümayəndə heyətinin üzvləri - Agentliyin baş direktoru Alina Bakitcanovna, qurumun müşaviri Olqa Alekseyevna, ali təhsil müəssisələrin akkreditasiyası üzrə layihə meneceri Quliyaş Balkenova, Beynəlxalq əlaqələr üzrə baş direktorun müavini Timur Yerbolatoviç və Dövlət İmtahan Mərkəzinin Yoxlama-ölçmə materiallarının yoxlanması departamentinin müdiri Natiq Əliyevin qatıldığı görüşdə ATMU-nun təhsil proqramlarının beynəlxalq akkreditasiyasının keçirilməsi məsələsi detallı müzakirə olunub. Universitetin rektoru cənab İlham Mədətov söhbət əsnasında İAAR və DİM təmsilçiləri ilə görüşdən məmnunluğunu bildirib və ATMU üçün keyfiyyət faktorunun önəmliliyi və bu istiqamətdəki islahatların əhəmiyyətinə aydınlıq gətirib.

Qeyd edək ki, Universitetin 2022/2026-cı illər üçün nəzərdə tutulan Strateji inkişaf planında da ali təhsilin beynəlmiləlləşməsinə nail olmaq üçün təhsil proqramlarının beynəlxalq akkreditasiyasının keçirilməsi məsələsi nəzərdə tutulub.

# Pandemiya ilə mübarizəyə 48,3 milyon manat ayrılacaq

***Səhiyyə sahəsində digər xidmətlərin maliyyələşdirilməsi xərcləri hesabına pandemiya şəraitində əhalinin sağlamlığının qorunması, sanitar-epidemioloji vəziyyətə nəzarətin təmin edilməsi, infeksiyaya yoluxmuş və onlarla təmasda olan şəxslərin monitorinqinin aparılması məqsədilə 2023-cü ilin dövlət büdcəsində sanitar-epidemioloji tədbirlər üçün 48,3 milyon manat vəsait proqnozlaşdırılıb.***

"Unikal" xəbər verir ki, bu, "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi Zərfi"ndə əksini tapıb.

Həmçinin, onkoloji xəstəliyə düçar olmuş şəxslərin sağlamlığının qorunması, dərman preparatlarına olan tələbatın ödənilməsi, müayinə, müalicə və reabilitasiyasının həyata keçirilməsi və bu sahənin maddi texniki bazasının gücləndirilməsi məqsədilə 2023-cü il dövlət büdcəsində Milli Onkologiya Mərkəzi üçün 47 milyon manat vəsait nəzərdə tutulub.

Bundan başqa, ölkədə ixtisaslaşdırılmış oftalmoloji xidmətlə təmin edilmə, göz patologiyası ilə mübarizədə elmi-metodik cəhətdən əsaslandırılmış tədbirlərin işlənilməsi, tətbiqi və gücləndirilməsi, respublikada ixtisaslaşdırılmış oftalmoloji yardımın təşkili məqsədilə 2023-cü ilin dövlət büdcəsindən Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə 9,5 milyon manat məbləğində vəsait ayrılacaq.

# Ceyhun Cəfərovun kadrlarının havaya sovurduğu milyonlarla manat...

## Kürdəmirdə sabiq başçının həbsindən sonra da dövlət tenderləri ilə bağlı çoxsaylı suallar dolaşır; kimlər dövlət vəsaitlərini necə talan ediblər?

***2021-ci ildə Kürdəmir rayonunda dövlət qurumları tərəfindən ümumi məbləği 3 milyon 77 min 864 manat olan 17 tender keçirilib. Rəsmi rəqəmlərdən belə məlum olur ki, Kürdəmir Rayon İcra Hakimiyyəti (RİH) 3 tenderə 58 min 696 manat xərcləyib. Ən böyük tenderin qalibi isə "Meliorator" MMC olub (34 min 696). Şirkət ümumilikdə İH-nin tenderlərindən 34 min 696 manat qazanıb. Bu isə il ərzindəki tenderlərin ümumi məbləğinin 59.11 faizini təşkil edir.***

Kürdəmir Regional Aqrar Elm Mərkəzi Dövlət Müəssisəsi il ərzində 1 tender keçirib və 2 milyon 356 min 600 manat xərcləyib. Bu isə bir ildə rayon üzrə keçirilmiş tenderlərin ümumi məbləğindən 3 dəfə çoxdur.

Bir sözlə, Kürdəmir rayonunda keçirilən tenderlərin həm effektliliyi, həm də şəffaflığı ilə bağlı çoxsaylı şübhələr dolaşır.

Daha da konkretləşdirək: sabiq icra başçısı Ceyhun



Cəfərov bu rayona icra başçısı təyin edildikdən sonra oxşar şübhələr artan xətlə davam edib. Məsələn, yerli icra hakimiyyəti 2017-ci ildə əkin dövriyyəsinə qatılmış əkin sahələrinə suvarma suyunun çatdırılması işləri üçün 379 6378.31 manat tenderdə qalib elan edilmiş "Xəzər İnşaat E" MMC-yə çatıb. Ancaq bu da bəs eləməyib. Kürdəmir RİH eyni təyinatla yenə "Xəzər İnşaat E" MMC-nin tender qalib olmasına şərait yaradıb və bu dəfə 390 000 000 vəsait ayrılıb. Lakin qəribəsi ondadır ki, podratçı şirkət kimi fəaliyyət göstərən "Xəzər İnşaat E" MMC-nin nə ünvanı, nə sahibi bəllidir. İnternetdə axtarış verən zaman şirkətin yalnız gördüyü işlərə aid rəsmi məlumat çıxır. Bir rayonda bu qədər böyük məbləğdə tender udan MMC-yə aid hər hansı saytın belə mövcud olmaması anlaşılmazdır.

Məhz bu cür korrupsiya əməliyyatları səbəbindən Kürdəmir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Ceyhun Cəfərov və digər bir sıra keçmiş vəzifəli şəxslər iki ildən çoxdur qandallanıblar. Ancaq yazının əvvəlindəki müəmmalı tenderlər Cəfərovdan sonra da RİH-də bir çox qaranlıq işlərin çevrildiyini göstərir.

Onu da qeyd edək ki, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Ceyhun Cəfərov 8 il 6 ay azadlıqdan məhrum edilib. Onunla bərabər rayonun bir sıra vəzifəli şəxsləri də müxtəlif müddətə həbs olunublar.

C.Cəfərovdan sonrakı aylar ərzində çox sayda müəmmalı tender əməliyyatları belə düşünməyə əsas verir ki, onun kadrları yeni icra başçısı təyinatınadək həmin əməllərini davam etdiriblər. Sözügedən məmurlarla bağlı araşdırmalara ciddi ehtiyac duyulduğu isə ortaya çıxan və yuxarıda sadalanan faktlardan gün kimi aydındır...

***P.S. Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2022-ci il tarixli Sərəncamı ilə Elxan İbrahimov Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunub. Yeni icra başçısının Cəfərovun həbsindən sonrakı iki il ərzində rayonda baş tutan tenderlərlə bağlı ciddi araşdırma aparmasına ehtiyac var. Belə bir araşdırma sabiq başçının qandallanmasına baxmayaraq bəzi yerli məmurların "köhnə hamam, köhnə tas" prinsipi ilə hərəkət etdiklərini, istər şəffaflıq, istərsə də effektivlik baxımından müəmmalı davranıqlarını ortaya çıxaracaqdır...***

***P.S. Yeri gəlmişkən, bir müddət öncə Elxan İbrahimovun Kürdəmir Rayon İcra Hakimiyyətinin təbliğatına 26 min manat ayırdığı açıqlanmışdı. Bu barədə məlumatda qeyd edilirdi ki, yeni icra başçısı SMM xidmətlərinin satın alınması üçün tenderdə Emin Məmmədzadə adlı şəxslə 26 400 manat məbləğində satınalma müqaviləsi imzalayıb. Müqaviləyə əsasən, qalibə hər ay 4.400, ümumilikdə isə 26 min 400 manat ödəniş olunmalıdır.***

***"SMM xidməti göstərəcək fiziki şəxs icra hakimiyyətinin "Facebook" və "İnstagram" sosial şəbəkələrdəki səhifələrində yerləşdirilən təbliğat- təşviqat xarakterli materialların, həmin sosial şəbəkələrdə reklam məqsədi ilə yerləşdirilməsi işlərini görəcək" - bu barədə məlumatda deyilirdi.***

***Belə bir fəlaiyyət üçün Azərbaycan reallığında kifayət qədər böyük məbləğin ayrılması isə ictimai rəydə ciddi rezonans, elə bir o qədər də mübahisə doğurmuşdu.***

***Əvvəlki rayon rəhbərliyinin və ona yaxın kadrların şübhəli satınalmaları ilə bağlı müzakirələr davam edərkən Kürdəmirin yeni rəhbərliyinin daha şəffaf, obyektiv və cəmiyyətdə ajiotaj yaratmayacaq tenderlərinə əşhədü-ehtiyac var...***

***Toğrul Əliyev***

## 5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda qadınların rəhbər vəzifələrə təyinatında müsbət irəliləyiş

## Aliyə Əliyeva: "Yüksəliş" müsabiqəsi başlayandan Azərbaycanda xeyli sayda qadın bu müsabiqədə iştirak edərək uğur qazanıb

***Son bir neçə onillik ərzində Azərbaycanda gender bərabərliyinin təşviqi istiqamətində əhəmiyyətli işlər görülüb. Bütün kişi və qadınlar arasında hüquq bərabərliyi ölkə Konstitusiyasında birmənalı şəkildə təsbit olunub. Azərbaycan 1992-ci ildə "Qadınların siyasi hüquqları haqqında" Konvensiyaya, 1995-ci ildə isə "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyaya qoşulub. 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edilib. Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının təşviqi üzrə Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının ləğv edilməsi haqqında Konvensiya da daxil olmaqla bir sıra beynəlxalq sazişləri ratifikasiya edib, gender bərabərliyinin təşviqi və məişət zorakılığı ilə mübarizə üzrə qanunlar qəbul edilib. Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyi siyasətini həyata keçirən mərkəzi icra orqanı yaradılıb.***

Ölkəmizdə insan hüquq və azadlıqlarının, onların tərkib hissəsi kimi gender bərabərliyinin təmin edilməsi daim Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Azərbaycan tarixinə nəzər salsaq görərik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak ediblər. Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ verilib. 2006-cı ildə Prezident İlham Əliyev tərəfindən təsdiqlənərək qüvvəyə minən "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir.

Bununla belə müasir dövrümüzdə Azərbaycanda vəzifə bölgüsündə kişilər qadınlarla müqayisədə üstünlük təşkil edir. Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadə mətbuata açıqlamasında bildirib ki, ölkəmizdə bu sahədə müəyyən irəliləyişlər olsa da, hələ arzuolunan səviyyədə deyil. "Gender bərabərliyinin işgüzar fəaliyyətə müsbət təsiri də artıq heç bir şübhə doğurmur. Bir sıra tədqiqatlar göstərir ki, qadınların karyera pilləsində rahat yüksəldiyi və rəhbər vəzifələrə təyin olunduğu şirkət və təşkilatlar öz sahələrində daha məhsuldar və səmərəli fəaliyyət göstərirlər". O, qeyd edib ki, burada söhbət qadınlara hansısa imtiyaz verilməsindən yox, onların bacarıqlarının layiqincə qiymətləndirilməsindən gedir. "Məsələn, dövlət qulluğuna qəbul üzrə imtahan və müsahibələrdə hər iki cinsin nümayəndələrinin göstəriciləri bir-birinə yaxın olsa da, xüsusən rəhbər vəzifələrə təyinatda kişilərə üstünlük verilməsi bariz şəkildə nəzərə çarpır" - deyə sədr qeyd edib.



Dövlət Qulluqçularının Reyestrinə daxil edilmiş məlumatlara əsasən dövlət orqanlarında 24 min 562 nəfər çalışır. Onlardan 7 min 336 nəfəri qadındır. İnzibati rəhbər vəzifələrdə çalışan dövlət qulluqçularından cəmi 533 nəfəri qadındır. Qadınlar daha çox inzibati icraçı vəzifələrdə çalışırlar. Yardımçı vəzifələrdə çalışan dövlət qulluqçularından da 2 min 157 nəfəri qadındır.

Azərbaycanda qadınların idarəetmədə rolunun ötən dövrlərlə müqayisədə xeyli yüksəldiyini müşahidə edirik. Məsələn, hazırda Azərbaycanda səlahiyyətlərinə görə, Prezidentdən sonra ikinci şəxs olan I vitse-prezident vəzifəsini qadın icra edir. Bu post 2017-ci ildə yaradılıb və buraya ölkənin Birinci xanımı Mehriban Əliyeva təyin edilib. Mehriban xanım Əliyeva bundan öncə uzun illər parlamentin deputatı da olub. Rəhbər vəzifələrə gəldikdə isə, Azərbaycanda nazir müavinlərindən cəmi 6-sı qadındır. Ailə Qadın və Uşaq Problemləri Komitəsinin sədri, Dövlət İmtahan Mərkəzinin sədri və Azərbaycanda Ombudsman da qadındır. Parlament seçkisində Milli Məclisə 22 qadın deputat seçilib. Parlamentin ötən çağırışında isə qadın deputatların sayı 21 olub. 2019-cu ilin statistikasına əsasən, ölkəmizdə hakim qadınların sayı 78 nəfərdir, başqa sözlə hakimlərin 14 faizi qadındır. Azərbaycanda prokurorluq orqanlarında rütbə nəzərdə tutan vəzifələrdə çalışan işçilərdən 81 nəfəri qadındır. Bu, prokurorluq orqanları işçilərinin sayının 7 faizini təşkil edir. Hazırda 6 qadın prokuror təyin edilib. Ötən illər ərzində nazir müavini olan qadınların sayı 3 nəfərdən 8 nəfərə yüksəlib, 3 səfir və 1 konsul da qadındır.

Son iki ildir ki, ölkəmizdə "Yüksəliş" müsabiqəsi vasitəsilə rəhbər vəzifəyə təyin edilən qadınların sayı artıb. "Yüksəliş" müsabiqəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Aliyə Əliyeva "Unikal"a bildirdi ki, "Yüksəliş" müsabiqəsi başlayandan Azərbaycanda xeyli sayda qadın bu müsabiqədə iştirak edərək uğur qazanıb: " Birinci "Yüksəliş" müsabiqəsinin 2019-cu il dekabrın 27-dən başlayan qeydiyyat mərhələsi 2020-ci il fevralın 2-də tamamlanıb. Bu müddətdə 11.760 nəfər qeydiyyatdan keçib. Onlardan 2822 nəfəri qadındır. İkinci "Yüksəliş" müsabiqəsinə gəldikdə isə 2022-ci il fevral ayının 17-dən başlayan mərhələ 2022-ci il 31 mart tarixində tamamlanıb. Bu müddətdə 12299 şəxs qeydiyyatdan keçib. Qeydiyyatdan keçənlərin 3804-ü qadındır. Ümumilikdə 6626 qadın "Yüksəliş" müsabiqəsində iştirak etmək üçün qeydiyyatdan keçib". Onun sözlərinə görə, Birinci "Yüksəliş" müsabiqəsinin finalında iştirak haqqı qazanan 102 nəfər namizəddən 13- ü, ikinci "Yüksəliş" müsabiqəsinin 106 finalçısından 17-si qadındır. Birinci müsabiqənin 4, ikinci müsabiqənin isə 5 olmaqla ümumilikdə "Yüksəliş"in 11 qadın qalibi müəyyənləşdirilibdir. Qadınlar arasında əks-cinslə müqayisəyə gəlincə A. Əliyeva bildirib ki, hazırda üstünlük kişilərin tərəfindədir: "Statistikaya əsasən kişilərlə müqayisədə qadınların müsabiqəyə marağı daha az müşahidə olunsa da, biz inanırıq ki, birinci və ikinci müsabiqədə uğur qazanan qadın iştirakçıları gördükcə qadınlar arasında müsabiqəyə maraq daha da artacaq".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# SİMA mobil tətbiqinin istifadəçi sayı 100 mini ötdü

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "AzInTelecom" MMC-nin hazırladığı SİMA mobil tətbiqinin istifadəçilərinin sayı 100 mini ötüb.***

"Unikal" xəbər verir ki, SİMA yeni nəsil rəqəmsal imza 2022-ci ilin fevral ayında istifadəyə verilib. Qısa müddət ərzində bu nəticənin əldə edilməsi SİMA-ya olan etimadın göstəricisidir.

Vətəndaşlar "Play Store" və ya "App Store" platformaları üzərindən SİMA mobil tətbiqini yükləyib, sadəcə şəxsiyyət vəsiqəsi təqdim etməklə biometrik qeydiyyatı tamamlayıb rəqəmsal imza əldə edə bilərlər.

SİMA rəqəmsal imza ilə rəqəmsal dövlət, bank, bank olmayan kredit təşkilatları (BOKT), mobil operatorlar, elektronika, məişət, TV və internet provayderlər, bir sözlə, imza tətbiq olunan bütün sahələr üzrə xidmət və məhsullar əldə etmək mümkündür.

Yeni nəsil rəqəmsal imzanın həm vətəndaşlar, həm də xidmət təklif edənlər üçün maliyyə xərclərinin azaldılması və vaxt itkisinin qarşısının alınması kimi üstünlükləri var. Bundan əlavə, SİMA-nın istənilən sistemə inteqrasiya oluna bilməsi, eləcə də avtomatlaşdırılma istifadəçilərə sürətli və istənilən sayda imzalama imkanı da qazandırır.

Hazırda müxtəlif sahələr üzrə fəaliyyət göstərən şirkət və dövlət qurumlarının SİMA yeni nəsil rəqəmsal imza ilə inteqrasiyası həyata keçirilir.

Bu günədək maliyyə sahəsində fəaliyyət göstərən "PAŞA Bank", "Turanbank", "Yelo Bank", "Azkredit" BOKT, "Kredit Evi" QSC inteqrasiyanı yekunlaşdırıb. Həmçinin sığorta şirkətləri olan "PAŞA Həyat", "Bakı Sığorta", "Qala Sığorta" və "Qala Həyat"ın məhsullarını SİMA rəqəmsal imza vasitəsilə əldə etmək olar.

Bundan əlavə, SİMA ilə FİNDOC platformasına daxil olan vətəndaşlar özlərinin kredit skorunu, tarixçələri və hesabatı əldə edə bilərlər. Həmçinin vətəndaşlar SİMA vasitəsilə "ASAN Login"ə daxil olmaqla 80 portal və sistemə vahid məkandan giriş-çıxış imkanı əldə ediblər. "Azərişıq" ASC-nin "Əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması" xidmətinə müraciət edərkən də sənədləri SİMA ilə daha rahat imzalaya bilərlər.

Hazırda 12-si dövlət qurumu olmaqla, ümumilikdə 60-dan çox müəssisənin SİMA rəqəmsal imza ilə inteqrasiyası davam etdirilir.

SİMA ilə bağlı daha ətraflı məlumatı rəqəmsal imzanın rəsmi saytından və "157" Çağrı Mərkəzi ilə əlaqə saxlayaraq əldə etmək olar.




# “Şuşa Zəfər Layihəsi” təqdim olundu

***Diasporla İş üzrə Dövlət Komitəsi 8 Noyabr - Zəfər Günü münasibətilə ”Şuşa Zəfər Layihəsi”ni təqdim edib.***

”Unikal” xəbər verir ki, dövlət və hökumət nümayəndələrinin, millət vəkilləri və ziyalıların qatıldığı tədbirin iştirakçıları əvvəlcə torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Daha sonra qonaqlara Azərbaycan Diasporuna Dəstək Fondu və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin birgə dəstəyi ilə ərsəyə gələn, mədəniyyət paytaxtımız Şuşada həyata keçirilən “Şuşa Zəfər Layihəsi” barədə ətraflı məlumat verilib. Fondun icraçı direktoru Əkrəm Abdullayev bildirib ki, layihə “Şuşa ili” çərçivəsində və Zəfər Günü münasibətilə həyata keçirilib, onun təşəbbüskarı isə San-Fransisko Dünya Musiqi Festivalının musiqi direktoru, ABŞ-ın tanınmış universitetlərində ustad dərsləri keçən, Azərbaycan musiqisini və kamançanı xaricdə təbliğ edən İmamyar Həsənovdur. Layihədə dahi bəstəkarımız Üzeyir Hacıbəylinin, Vasif Adıgözəlovun əsərlərinə və bir sıra milli musiqi kompozisiyalarına müraciət olunub, həmin əsərlər İ.Həsənovun məharətli ifası ilə təqdim olunub.

İmamyar Həsənov çıxışında xaricdə yaşayan azərbaycanlı musiqiçi kimi Azərbaycan dövlətinin dəstəyini həmişə üzərində hiss etdiyini bildirib və buna görə Prezident İlham Əliyevə təşəkkür edib. O, Şuşanın Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olduğunu və belə bir layihənin onun yaradıcılığında parlaq səhifəyə çevrildiyini qeyd edib.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin nümayəndəsi Elmira Fərzəliyeva Diasporla İş üzrə Dövlət Komitəsinə və Azərbaycan Diasporuna Dəstək Fonduna səmərəli əməkdaşlıq üçün minnətdarlıq edib.

Qonaqlar ”Şuşa Zəfər Layihəsi” adlı musiqi albomunu izlədikdən sonra çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov “Şuşa ili” çərçivəsində və Zəfər Günü münasibətilə dünya azərbaycanlılarının həyata keçirdiyi layihələrin əhəmiyyətindən danışıb. Bildirib ki, dünya azərbaycanlıları hər zaman ölkəmizin və Ali Baş Komandanın yanındadırlar, beynəlxalq müstəvilərdə haqq səsimizin daha ucadan eşidilməsinə töhfələrini verirlər. “Xaricdə yaşayan azərbaycanlılar üçün əsas prinsip Azərbaycanın müstəqilliyidir. Müstəqilliyimizi isə nə sağdan, nə də soldan kimsə təhdid edə bilməz” - deyən Komitə sədri xaricdəki icmalarımızın uğurlu mədəniyyət layihələri barədə məlumat verib, İmamyar Həsənovun timsalında onların Qarabağla bağlı fəaliyyətlərini yüksək qiymətləndirib. Eyni zamanda komitənin layihələrinə hər zaman dəstək göstərən müvafiq dövlət qurumlarına və Heydər Əliyev Fonduna təşəkkür edib.

Milli Məclisin sədr müavini Fəzail İbrahimli 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun “Böyük Ermənistan” ideologiyasını darmadağın etdiyini deyib və bunun əhəmiyyətindən söz açıb.

Milli Məclisin deputatı, bəstəkar Novruz Aslan “Şuşa Zəfər Layihəsi”nin dünya ictimaiyyətinin Azərbaycan həqiqətləri, eləcə də zəngin mədəniyyətimizlə bağlı məlumatlandırılması üçün əvəzsiz vasitə olduğunu vurğulayıb.

Azərbaycanın əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev İmamyar Həsənova yaradıcılıq uğurları arzulayıb.

Şuşanın Azərbaycan tarixindəki rolundan bəhs edən əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Solmaz Tohidi-Rüstəmova qeyd edib ki, Azərbaycan musiqisi ölkəmizi dünyada tanıdan brendlərdən biridir.

Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin həyat yoldaşı Flora Qasımova Vətən müharibəsindəki tarixi Zəfərin Azərbaycan xalqını birləşdirdiyini və Birinci Qarabağ müharibəsindəki şəhidlərimizin qisasının alınması ilə nəticələndiyini vurğulayıb.

İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru İftixar Piriyev “Şuşa Zəfər Layihəsi”ni böyük mədəniyyət hadisəsi adlandırıb.

# İnsanın həyatına toxunan adam - Qulu Məhərrəmliyə segilərlə



***Mən efirə gəlişimi ona borcluyam. Onlarla qızın içərisindən bir tək məni seçmişdi ”Səhər” proqramı üçün keçirdiyi müsabiqədə. Müsabiqə mən kamera qarşısına keçənə qədər davam etmişdi. Mən danışandan sonra müsabiqəni saxlamışdı, ”artıq axtardığımı tapdım” demişdi.***

Yadımdadır, dekabrın 17si idi. Bu gün seçdi, 2 gün sonra heç bir hazırlıqdan keçirmədən, heç bir diktora öyrətməyə vermədən, heç zaman canlı efirə çıxmayan, xəbərlər nədir bilməyən İradəni Az TV-nin efirinə birbaşa canlı yayıma çıxardı. Çox böyük risk idi. Ətrafındakıların bütün etirazlarına baxmayaraq, Qulu müəllim heç Nizami Xudiyevin də fikrini gözləməmişdi. O qədər müstəqil saxlamışdı redaksiyasını yəni. ”Səhər” AzTV-də ayrı planet idi sanki.

Düzdür, bu seçim mənə baha başa oturdu, dışlandım, aramızı vurmaq üçün hər şeyi etdilər, hətta nail də oldular. Bezdim və İTV-yə getdim. Bu qəfil gedişim Qulu müəllimi məndən incik salmışdı. Amma sonradan çox başqa hadisələr oldu.

Heç vaxt onun tərəfini vermədim.

Məlum, o vaxtkı İTV antiqulu kadrlar hesabına qurulmuşdu. Orda bir post tutmaq üçün onun düşməni olmaq və yaxud da onunla yeyilən qaba bir təpik vurmaq kifayət idi. O qab mənim də qarşıma qoyuldu. Amma heç vaxt müəllimimin, mənim əlimdən tutan ilk adamın tərəfini vermədim. Hətta açıq müdafiə etdiyim üçün tezliklə də ordan uzaqlaşdırildim. Bilə-bilə tarana getmişdim. Qulu müəllimin özü də bundan xəbər tutmuşdu.

- İşini itirməkdən qorxmadınmı?

- İşi itirmək müəlliminə üz döndərməkdən çətin deyildi. Nə vaxt haqsızın yanında dura bilmişəm ki?

Qulu müəllimdən çox şey öyrəndim mən. Birinci, ən çətin anda da pozitiv olub gülümsəməyi. Bizim kişilər gülümsəməz ki... Amma onun siması daim təbəssümlüdür, işıqlıdır. Ən ağır anlarında da bu təbəssümünü itirmədi. Düşmənlərinə də çox od qoydu bu rahat gülüş. ”Siz nə edirsiniz edin, mənim kefimin qırağını da bükə bilməzsiniz” mesajı idi bu. Özgüvənin ən yuxarı mərhələsidir bu. Bunu öyrəndim ondan.

Çox sürətlə düşünməyi, qərar verməyi, politik yanaşmanı, nəzakəti, jurnalistin erudisiyalı olmağa borclu olduğunu öyrəndim. Xüsusən sürətlə düşünüb qərar verməsinə heyran idim və geri düşünməzdi heç. Bunu da ondan əxz etmişəm.

Bir də publisistik dili, ən sıxıcı mövzuya da can verməyi gözəl bacarır Qulu müəllim.

Sevəni qədər sevməyəni də çoxdur. Amma sevənlərinin də ürəyində öz yeri olan adamdır.

Arzularını bilmirəm, amma hamısının da sürətlə həyata keçməsini ümid edirəm.

Doğum gününüz mübarək, Qulu müəllim. Daha neçə illər bu təbrikləri bizə yazdırmağınızı və ürəyinizdəki bütün arzuların müstəcəb olmasını diləyirəm. Çox yaşayın!

***İradə İsak***

# Azərbaycanda körpə doğuşda öldü, ginekoloqa cinayət işi açıldı

***Azərbaycanda doğuş zamanı körpə ölüb.***

”Unikal” lent.az-a istinadən xəbər verir ki, hadisə Abşeron rayon Mərkəzi Xəstəxanasında qeydə alınıb.

Burada rayon sakini A.Orucəliyeva gecə saat 3 radələrində xəstəxanaya daxil olub. Günorta saat 14 radələrində isə körpə ölü doğulub.

Məlumata görə, körpənin həkim səhlənkarlığından öldüyü bildirilir. Belə ki, zərərçəkmiş şəxsin iddiasına görə, doğuşu həyata keçirən gine-



koloq şəxsən tam olaraq, əməliyyatda iştirak etməyib.

Faktla bağlı Abşeron rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Cinayət işi əsasında, doğuşu həyata keçirən həmin xəstəxananın həkim-ginekoloqu 43 yaşlı Arzu Bədəlova istintaqa cəlb olunub. Onun barəsində məhkəmə heç yerə getməmək qaydasında iltizam tədbiri seçib.

Cinayət işinin istintaqına Abşeron rayon Məhkəməsində baxılacaq.

# Hacıqabulda suvarma mövsümü bitib, Şirvanda kollektor-drenajlar lildən təmizlənib



***Hacıqabul rayonunda suvarma mövsümü uğurla başa çatıb. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Hacıqabul Suvarma Sistemləri İdarəsi rayonun 19 min hektara yaxın suvarılan torpaqlarında kənd təsərrüfatı əkinlərini, meşə zolağını və rayonun 34 min hektar qış otlaqlarında su təminatını həyata keçirir.***

Bundan başqa idarə tərəfindən mülkiyyətdə olan meliorasiya və irriqasiya sistemlərinin istismarı təşkil edilir, bu sahənin inkişafı ilə bağlı digər işlər yerinə yetirilir. Əkinlərin su təminatının yaxşılaşması üçün cari ildə 270 km-dən artıq magistral və təsərrüfatdaxili kanallarda lildən təmizləmə işləri yerinə yetirilib. Beləliklə kanallar vasitəsi ilə əkin sahələrinə çatdırılan suvarma suyu maneəsiz olaraq ötürülüb. Bundan başqa balansda olan nasos stansiyalara baxış keçirilib, nasazlıqlar aradan qaldırılaraq hər birinin fəaliyyəti saz vəziyyətdə saxlanılır.

2022-ci təsərrüfat ilinin əvvəlindən suvarmaların mütəşəkkil keçirilməsi, sudan səmərəli istifadə olunması, su itkilərinə yol verilməməsi, habelə suvarmaların növbəlilik qrafikinə əməl olunması istiqamətində xeyli işlər görülüb. İdarə üzrə 17 ədəd hidrotexniki qurğu, 1000 metr beton kanallar, 1 ədəd mülki və istehsalat binaları, 1 ədəd nasos stansiya da cari təmir olunub. Nasos aqreqatları ilə əkinlərin suvarılması və qış otlaqlarında məskunlaşan təsərrüfatların içməli su ilə təmin etmək üçün su mənbələrindən 73130 min m3 su götürülüb.

Hacıqabul Suvarma Sistemləri İdarəsi tərəfindən ümumilikdə 2022-ci ildə ərzində 12285 ha taxıl, 247 ha pambıq, 252 ha şəkər çuğunduru, 2155 ha yem bitkiləri, 342 ha bostan-tərəvəz, 343 ha çoxillik əkinlər, 2500 ha həyətyanı sahələr və digər kənd təsərrüfatı bitkilərinin suvarılması tam olaraq başa çatdırılıb.

Ümumilikdə 313 km kollektor-drenaj şəbəkəsi lildən təmizlənib. Dilqəm Şərifov bildirib ki, Baş Şirvan Kollektorunun İstismarı İdarəsi ölkənin 7 rayonunda ümumilikdə 253000 ha torpaq sahəsinə 2399 km kollektor-drenaj şəbəkəsi vasitəsilə xidmət edir. Bu şəbəkədən 843 km-i təsərrüfatlar arası, 1556 km-i təsərrüfat daxili kollektor, o cümlədən 775 km açıq, 781 km-i isə qapalı şəbəkədir. İdarənin balansında 2898 ədəd qurğular mövcuddur ki, həmin qurğulardan 932 ədədi körpü keçidlər, 3 ədədi hidrometirik postlardır. İdarə tərəfindən balansda olan kollektorların təmiri də diqqətdə saxlanılır. Hazırda Sabirabad rayonu Quruzma kəndi ərazisindən keçən K-2 kollektorunda bu işlərə başlanılıb.

Baş Şirvan Kollektorunun İstismarı İdarəsinin balansında olan maşın mexanizimlər tərəfindən mütamadi olaraq kollektor drenaj şəbəkəsində lildən təmizlənmə işləri aparılır. Kollektorlar lildən təmizlənərək qrunt sularını maneəsiz olaraq ərazidən kənarlaşdırır. 2022-ci ilin əvvəlindən bu günə qədər 313 km uzunluqda lildən təmizlənmə işləri həyata keçirilib. İdarənin balansında 11 ədəd nasos stansiyalar mövcuddur ki, hazırda ərazilərin şoranlaşmasının qarşısının alınması və yenidən əkinə qaytarılması üçün bütün nasos stansiyalar tam gücü ilə fəaliyyət göstərir. İdarənin xidməti etdiyi rayonlarda ilin əvvəlindən tərtib edilmiş tədbirlər planına uyğun olaraq cari təmir işləri davam edir.

Qeyd edək ki, Baş Şirvan Kollektorunun İstismarı İdarəsi respublikanın yeddi rayonunda Ağdaş, Ucar, Göyçay, Kürdəmir, Sabirabad, Hacıqabul və Salyan rayonlarında kollektor-drenaj şəbəkəsinə xidmət edir.

***Hüseyn***

# UNEC üçtərəfli memorandum imzaladı

***Azərbaycan Respublikasının Hesablama Palatası, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Gürcüstan Dövlət Audit İnstitutu arasında üçtərəfli memorandumun imzalanması mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, Hesablama Palatasında keçirilən imzalanma mərasimində Palatanın sədri Vüqar Gülməmmədov, UNEC-in rektoru professor Ədalət Muradov, Gürcüstan Dövlət Audit İnstitutunun direktoru Gela Tsiklauri və digər qonaqlar iştirak ediblər.



Qurum rəhbərləri memorandumunun məqsədinin Hesablama Palatası, UNEC və Gürcüstan Dövlət Audit İnstitutu arasında elmi-praktik əlaqələrin inkişaf etdirilməsi, ixtisaslı kadr hazırlığının təmin olunması, qarşılıqlı maraq doğuran sahələrdə mövcud təcrübəni bölüşməklə münasibətlərin inkişafının təşviq edilməsi, təhsilalanların peşə-təcrübi bilik və bacarıqların artırılması, eləcə də "Dövlət sektorunda audit"in həyata keçirilməsi istiqamətində potensial kadr hazırlığının təmin edilməsi olduğunu bildiriblər. Əməkdaşlığın hər üç tərəf üçün faydalı olacağından əminliklərini ifadə ediblər.

Çıxışlardan sonra Hesablama Palatası, UNEC və Gürcüstan Dövlət Audit İnstitutu arasında üçtərəfli memorandum imzalanıb.

Memoranduma əsasən "Dövlət sektorunda audit" istiqaməti çərçivəsində Hesablama Palatasının əməkdaşları tərəfindən UNEC tələbələri üçün mühazirə, təlim və ustad dərslərin keçirilməsi, birgə layihələrin, konfrans və seminarların təşkili, həmçinin kadr hazırlığının təmin edilməsi məqsədilə yüksək təhsil göstəricisi olan tələbələrlə Hesablama Palatasının əməkdaşlarının görüşü, müvafiq sahə üzrə yüksək nəticə göstərmiş tələbələrə xüsusi sertifikatların verilməsi, Palatanın müvafiq struktur bölmələrində təcrübə və əlavə təlimlərin keçirilməsi nəzərdə tutulub.



# Vətən sevdalı qəhrəman

***İkinci Qarabağ müharibəsində canı bahasına 44 günə xalqına qələbə sevincini yaşadan Vətən övladlarının hər birini parlaq günəşə bənzədirlər. Astara rayonunun Pəlikəş kəndində boya-başa çatan Tarif Qədim oğlu Cəfərzadə də onların arasındadır. Tarif özünü Vətən torpaqlarının azadlığı uğrunda fəda edəndə ömrünün 18-ci ilini yaşayırdı. Qaldı ki, qısa zaman kəsiyində yaşının çərçivəsinə sığmayan, heç zaman unudulmayan bir tarix yazdı. Bu tarixlə bütöv bir xalqın qəhrəmanlıq simvoluna çevrildi. Zaman-zaman ürəklərdə yuva qurmaqla bərabər, həm də dövlət tərəfindən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda" və digər medallara layiq görüldü.***

Bəli, həyatı dərk edən gündən Qarabağda baş verən qanlı hadisələr Tarifi çox narahat edir. Odur ki, Vətənin qeyrətini hər şeydən üstün tutan Astara elinin qəhrəman oğlu 2020-ci ildə ordu sıralarına erməni cəlladlardan qisas almaq arzusu ilə yola düşür. Cəbhə xətində müqəddəsliyinə tapındığı, ilahi bir məhəbbətlə bağlandığı doğma Azərbaycana övladlıq borcunu şərəflə verir. Son dərəcə mərd, cəsur, vətənpərvər bir gənc olan Tarif olduğu bütün təlimlərdə döyüş igidliyinə görə fərqlənir və erməni dığalarını əzməkdən ötrü hərbi sirlərini mükəmməl öyrənir. Beləcə, nümunəvi xidməti, ən əsası Vətənə qurban getməyə hər an hazır olması ona əsgər və zabitlərin hörmətini qazandırır.

İgid əsgər sentyabrın 27 -də İkinci Qarabağ müharibəsi başlayanda əlində silah ən ağır döyüşlərə qatılır və son qarış Vətən torpaqların azad olunacağı günədək yağı düşmənlə vuruşmağa and içir. Hər dəfə müharibə meydanına girəndə dığalardan üryəincə qisasını ala bilir. Qarış-qarış torpaqlar azad olunduqca Tarifin qollarına yeni bir güc, qüvvə gəlir. 37 gün min əzab-əziyyətli yollar keçən Vətən sevdalısı sözün həqiqi mənasında hər qarış torpaq uğrunda şücaət göstərir. Erməni quldurlarına verdiyi itkilərin sayı bilinmir. Xocavənd rayonunda gedən ağır müharibədə də Tarif düşmənlə son gülləsinə kimi döyüşüb aldığı qəlpə yarası nəticəsində həlak olur.

Vətən sevgisi şəhid Tarif Cəfərzadəyə ürəklərdə yaşamaq səadəti bəxş edibdir. Astara camaatı Azərbaycanın yeni, şanlı tarixinə adını yazan qəhrəman oğlunu hər yerdə, hər zaman böyük ehtiramla xatırlayır. Qərinələr keçəcək, gələcək nəsillər üçündə bu belə olacaqdır...

***Zəfər Orucoğlu, AJB üzvü***

## "Tullantıları tinglərə dəyiş" - ETSN

***Ağac əkilməsinin təşviqi, eyni zamanda tullantıların sayının azaldılması və təkrar emala dəstək məqsədilə "Bir ağac-min nəfəs" devizi altında "Tullantıları tinglərə dəyiş" aksiyasına bu gündən start verilir.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji Maarifləndirmə və İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Səyyarə Məmmədova "Unikal"a bildirib ki, bu gün ting paylama aksiyası 6 saylı Bakı "ASAN xidmət" mərkəzinin qarşısında keçirilir.

"Aksiya zamanı vətəndaşlar plastik, şüşə, kağız, işlənmiş batareyaları təhvil verərək əvəzində ağac tingi əldə edə biləcəklər".

S.Məmmədova hər kəsi aksiyalarda fəal iştirak etməyə, təbiətə fayda verəcək bu aksiyadan yararlanmağa çağırıb.

"Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Təmiz Şəhər" ASC və "ASAN xidmət" mərkəzlərinin təşkilatçılığı ilə növbəti analoji aksiya 4 noyabr saat 13:30-da Quba "ASAN xidmət" mərkəzinin qarşısında keçiriləcək".

"Tullantıları tinglərə dəyiş" aksiyaları barədə ətraflı məlumatı ETSN-in sosial şəbəkələrindən əldə etmək olar.



## "Dünyada vəziyyət mürəkkəb olaraq qalır" - Putin

***Dünyada mövcud vəziyyət mürəkkəb və qeyri-sabit olaraq qalır.***

”Unikal” TASS-a istinadən xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin Moskvada keçirilən MDB təhlükəsizlik şuraları katiblərinin onuncu iclasında deyib.

“Bu gün beynəlxalq mühit mürəkkəb və qeyri-sabit olaraq qalır. Bu baxımdan, MDB məkanında vəziyyətin hərtərəfli təhlili və potensial çağırışların və risklərin müəyyən edilməsi üçün strukturlarınızın güclü analitik və proqnozlaşdırıcı resurslarından tam istifadə etmək vacibdir”, - Rusiya lideri vurğulayıb.

Bir müddət əvvəl Kremlin sözçüsü Dmitri Peskov bildirib ki, Rusiya prezidenti Putin Ukrayna ilə danışıqlar prosesinə hazırdır və Qərb dövlətləri bundan xəbərdar olmalıdırlar. Eyni zamanda, Peskov qeyd edib ki, belə bir vəziyyət “de-fakto zəifliyimizdən danışmır və danışa da bilməz”.

Bundan əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov demişdi ki, Kiyev danışıqları nə qədər gecikdirsə, onun Moskva ilə razılaşması bir o qədər çətin olacaq. O xatırladıb ki, Rusiya Federasiyasının rəhbəri dəfələrlə vurğulayıb ki, Moskva heç vaxt danışıqlardan imtina etməyib və etmir.

***Gülayə Mecid***

## "Zelenski gecə-gündüz "Putin prospekti"ni təmizləyəcək" - Kadırov

***”Xüsusi əməliyyat başa çatdıqdan sonra Ukrayna prezidenti Volodimir Zelenski “Putin prospektinin baş təmizləyicisi” olacaq”.***

”Unikal” xəbər verir ki , bunu Çeçenistan Respublikasının rəhbəri Ramzan Kadırov Ukrayna prezidenti üçün deyib.

“Tezliklə biz bu satanizmi, faşizmi məhv edəcəyik, Zelenskini Qroznıya gətirəcəyik və Putin prospektinə baş təmizlikçi təyin edəcəyik. Gecə-gündüz prospekti təmizləyəcək. Onun üçün belə bir mövqe düşündüm”, - Kadırov bildirib.

## "Bir gündə Rusiyanın 730 hərbçisi məhv edilib" - Baş Qərargah

***Noyabrın 3-ü cümə axşamı səhər saatlarına olan məlumata görə, Ukrayna hərbçiləri gün ərzində 730 rus əsgərini məhv edib.***

”Unikal” xəbər verir ki, bu barədə Ukrayna ordusunun Baş Qərargahı məlumat yayıb.

”İşğal başlayandan bəri rus ordusunun itkilərinin ümumi sayı 74.000 əsgərdir. Fevralın 24-dən noyabrın 3-dək düşmənin ümumi döyüş itkiləri təxminən: 2 754 tank, 5 579 döyüş zirehli texnikası, 1 777 artilleriya sistemləri, 277 təyyarə, 258 helikopter və digər vasitələr”, - məlumatda deyilir.

***Ağarza Elçinoğlu***

# KXDR Rusiyaya silah göndərir

***Şimali Koreya hakimiyyəti Yaxın Şərq və Afrika dövlətləri vasitəsilə Rusiyaya sursat göndərir.***

”Unikal” xəbər verir ki, bu barədə ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Ned Prays məlumat verib.

Onu sözlərinə görə, ABŞ hakimiyyəti Şimali Koreyadan Rusiyaya silah ötürülməsinin qarşısını almaq üçün bütün imkanlarından istifadə etməyi planlaşdırır.

”Biz İranın Rusiyaya silah tədarükünün qarşısını almaq üçün hər fürsətdən istifadə edəcəyimiz kimi, Şimali Koreyadan Rusiyaya silah tədarükü ilə bağlı da eyni şeyi edəcəyik. Sanksiya mexanizmləri mövcuddur, biz əlavə vasitələrə və əlavə səlahiyyətlərə baxacağıq”, - Prays bildirib.



O, həmçinin əlavə edib ki, ABŞ Pxenyanın hərəkətlərinə təsir etmək imkanına malik olan bütün ölkələrin Şimali Koreyaya təsir göstərməsini tələb edir.

Xatırladaq ki, Şimali Koreyanın Müdafiə Nazirliyinin nümayəndəsi bəyan etmişdi ki, bu ölkə Rusiyaya heç vaxt silah və sursat tədarük etməyib və bunu planlaşdırmır. KXDR bəyan edib ki, Rusiyanın yardımı ilə bağlı “şayiələr” onun “imicini ləkələmək” məqsədi daşıyır. Bundan əvvəl KİV-də Rusiyanın KXDR-dən artilleriya və raketlər üçün milyonlarla mərmi alması barədə məlumatlar yayılmışdı. Həmçinin bildirilib ki, Rusiya gələcəkdə Şimali Koreyadan başqa avadanlıq almağa cəhd edə bilər.

***Gülayə Mecid***

# Yunanıstanın prezidenti Kiyevə gedəcək

***Yunanıstan prezidenti Katerina Sakellaropulou və milli müdafiə naziri Nikos Panayiotopulos Kiyevə səfər edəcək və burada BMP-1-i Ukraynaya təhvil verəcəklər.***

”Unikal” xəbər verir ki, bu barədə Ukrayna KİV-ləri məlumat yayıb.

Həmçinin Yunanıstan Ukrayna tərəfini əlavə 155 mm-lik sursatla təmin etməyi planlaşdırır.

“Cümə axşamı Yunanıstan prezidenti müdafiə naziri və onun ofisinin rəhbərinin müşayiəti ilə Polşa üzərindən qatarla Kiyevə gedəcək”, - KİV-də qeyd olunub.



# Duqinanın qətlinə görə ukraynalı qadın axtarışa verildi

***Moskvanın Basmannı məhkəməsi “Rus dünyası”nın ideoloqu Aleksandr Duqinin qızı Dariyanın qətli işi üzrə Nataliya Vovku qiyabi həbs edib.***

”Unikal” xəbər verir ki, bu barədə Rusiyanın “RİA Novosti” nəşri məlumat yayıb. ”Məhkəmə Vovk barəsində Rusiya Federasiyasının ərazisində saxlandığı və ya ekstradisiya edildiyi andan iki ay müddətinə həbs qətimkan tədbiri seçib”, - məlumatda deyilir.

Rusiyada Vovk bir qrup şəxs tərəfindən siyasi və ya digər nifrət zəminində təhlükəli şəkildə törədilmiş qətldə ittiham olunur. Rusiya onu səkkiz ildən 20 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutub. Məhkəmə qeyd edib ki, Vovk beynəlxalq axtarışa verilib.



Xatırladaq ki, avqustun 21-nə keçən gecə “Rus dünyasının” əsas ideoloqlarından biri Aleksandr Duqinin qızı Dariya Moskva yaxınlığında dünyasını dəyişib. Dariya Duqinanın idarə etdiyi avtomobil partlayıb. Partlayışa səbəb ilkin olaraq qaz balonu göstərilsə də, ekspertlər onun avtomobilinə əldəqayırma partlayıcı qurğunun yerləşdirildiyini bildiriblər.

Qeyd edək ki, Dariya Duqi Rusiyanın Ukraynaya hücumundan bəhs edən “Z kitabı”nın müəlliflərindən biridir.

Rusiya Federal Təhlükəsizlik Xidməti (FSB) Dariya Duqinanın qətlinin arxasında Ukrayna xüsusi xidmət orqanlarının dayandığını bildirir.

***Gülayə***

# Rusiyada əsgərlik müddəti artırıla bilər

***Rusiyada orduda xidmət müddətini artırmaq lazımdır.***

”Unikal” xəbər verir ki, bu barədə Rusiya Dövlət Dumasının Krım vilayətindən olan deputatı Mixail Şeremet çıxış edib.

”Mövcud format əsgərin yüksək keyfiyyətli hazırlığını nəzərdə tutmur. İl ərzində maarifləndirmək, hazırlamaq çox çətin və problemlidir”, - deyə deputat bildirib. Onun fikrincə, iki il ən yaxşı seçim olardı.

Siyasətçi onu da qeyd edib ki, hərbi xidmətin artırılması Rusiya ordusunun döyüş hazırlığını artırmaq üçün ən qısa zamanda həyata keçirilməli olan vaxtında və zəruri tədbirdir.

***Ağarza Elçinoğlu***

# "Ukrayna 2014-cü ildən suverenliyini itirib" - Volodin

***Rusiya Dövlət Dumasının spikeri Vyaçeslav Volodin 2014-cü ildən bəri 10,5 milyondan çox insanın Ukraynanı tərk etdiyini, ölkə əhalisinin 53,7%-ni itirdiyini bildirib.***

”Unikal” xəbər verir ki, o, bu barədə ”Telegram” kanalında paylaşım edib.

Volodinin sözlərinə görə, 2014-cü ildə baş verən “dövlət çevrilişindən” sonra ölkə suverenliyini “itirdi”.

Dövlət Dumasının spikeri vurğulayıb ki, həmin andan 10,5 milyondan çox insan Ukraynanı tərk edib və Krım, Sevastopol, Donetsk və Luqansk Xalq Respublikaları, Zaporojye və Xerson vilayətlərinin daha 11,2 milyon sakini “Rusiya ilə birlikdə olmaq seçimini edib”.

Bundan əvvəl Volodin Ukraynanın gələcəkdə tamhüquqlu dövlət kimi mövcud olmaq imkanını itirdiyini və ABŞ-ın müstəmləkəsinə çevrildiyini iddia edib.

***G.Mecid***

# AFFA bu klubları cərimələdi



***AFFA İntizam Komitəsinin növbəti iclası keçirilib.***

"Unikal" milli assosiasiyanın rəsmi saytına istinadən xəbər verir ki, toplantıda aşağıdakı qərarlar qəbul olunub.

29.10.2022-ci il tarixində Misli Premyer Liqasının XII turunun "Kəpəz" - "Səbail" oyununda "Səbail" klubunun 55 nömrəli futbolçusu Nihad Qurbanlı oyunun 40-cı dəqiqəsində rəqibi aşkar qol vurmaqdan məhrum etdiyinə görə birbaşa qırmızı vərəqə ilə meydandan kənarlaşdırıldığı üçün 1 oyun cəzalansın, klub 200 manat cərimə olunsun. (maddə 47.2).

29.10.2022-ci il tarixində Misli Premyer Liqasının XII turunun "Zirə" - "Neftçi" oyununda jurnalistlər zona 1-də PFL-in verdiyi akkreditasiyaları üzərlərində görünən şəkildə asmadıqları üçün "Zirə" kluba xəbərdalıq edilsin. (PFL-nin Əsasnaməsinin 14.7-ci bəndinin tələblərinin pozulması, maddə 35, maddə 11).

30.10.2022-ci il tarixində Misli Premyer Liqasının XII turunun "Şamaxı" - "Qarabağ" oyununda "Qarabağ" klubunun azarkeşləri tərəfindən Şamaxı stadionunda 12 ədəd plastik oturacağın sıradan çıxarılmasına görə stadiona ziyan vurulduğu üçün dəymiş ziyan "Qarabağ" klubu tərəfindən tam ödənilsin. (maddə 49.4).

30.10.2022-ci il tarixində Misli Premyer Liqasının XII turunun "Sabah" - "Qəbələ" oyununda "Sabah" klubunun 4 futbolçusu sarı vərəqə ilə cəzalandırıldığı üçün "Sabah" klubu 800 manat cərimə olunsun. (maddə 39).

30.10.2022-ci il tarixində Misli Premyer Liqasının XII turunun "Sabah" - "Qəbələ" oyununda "Sabah" və "Qəbələ" klublarının azarkeşləri arasında kütləvi şəkildə intizamsızlıq baş verərək iğtişaş törədildiyinə görə "Sabah" və "Qəbələ" klubları ayrı - ayrılıqda 4000 manat cərimə olunsun. (maddə 49.1, maddə 49.3).

30.10.2022-ci il tarixində Misli Premyer Liqasının XII turunun "Sabah" - "Qəbələ" oyununda "Qəbələ" klubunun azarkeşləri tərəfindən qaçış zolağına kənar əşyaların atılmasına görə "Qəbələ" klubu 1600 manat cərimə olunsun (maddə 51.1).

30.10.2022-ci il tarixində Misli Premyer Liqasının XII turunun "Sabah" - "Qəbələ" oyununda "Qəbələ" klubunun azarkeşləri tərəfindən stadiona ziyan dəydiyi üçün (73 ədəd plastik oturacağın sıradan çıxması faktı) dəymiş ziyan "Qəbələ" klubu tərəfindən tam ödənilsin. (maddə 49.4).

30.10.2022-ci il tarixində Misli Premyer Liqasının XII turunun "Sabah" -"Qəbələ" oyununda, "Qəbələ" klubunun azarkeşlərinin törətdikləri ictimai təhlükəli əməllərə (iğtişaş törədilməsi, meydana kənar əşyaların atılması və stadiona zərər vuraraq oturacaqların sındırılması faktı) görə, "Qəbələ" klubunun azarkeşlərinin stadiona girişinə 1 oyunluq məhdudiyyət qoyulur. 05.11.2022-ci il tarixində Misli Premyer Liqasının XIII turunda keçiriləcək "Qəbələ" - "Zirə" oyununda "Qəbələ" komandasının azarkeşlərinin stadiona girişi qadağan edilsin. (maddə 49.3).

# "Qarabağ" bizdən güclü idi" - Antuan Kombuare

***"Nant"ın (Fransa) baş məşqçisi Antuan Kombuare Avropa Liqasının qrup mərhələsində "Qarabağ"la keçirdikləri görüşləri xatırlayıb.***

Qol.az tribunenantaise.fr-a istinadən xəbər verir ki, Fransa təmsilçisi 2-ci turda Bakıda Qurban Qurbanovun komandasına uduzub (0:3), 5-ci turda evdə qalib gəlib (2:1). Antuan Kombuare isə Ağdam təmsilçisinin güclü komanda olduğunu və bu görüşlərdə çətinlik çəkdiklərini deyib:

"Qarabağ"la oyunlarda çətinlik yaşadıq. Çünki onlar bizdən güclü idilər. Amma önəmli olan nəticədir. Yaxşı oynadığımız, amma qalib gəlmədiyimiz matçlardan nə isə öyrəndik. Təqdim etdiyimiz işdə irəliləyiş istəyiriksə, aydındır ki, biz daha çox nəzarət etməli, rəqiblərin zəif və güclü tərəflərini bilməliyik. Bunu "Qarabağ"a qarşı görüşdə də gördük. Diqqətimizi yalnız "Olimpiakos"la matça yönəltmişik. Bazar günü "Reyms"lə çətin səfərə yaxşı hazırlaşmaq üçün "Olimpiakos"a qarşı yaxşı oyun keçirmək istəyirik. Liqa 1-də qalmağımız üçün bu, vacib matçdır".



Qeyd edək ki, "Nant" bu gün son turda "Olimpiakos"la qarşılaşacaq. Aktivində 6 xal olan Fransa klubunun hələ də pley-off şansı qalır.

# Avrokuboklarin oyunları bu kanallarda

***Bu gün Avropa Liqasının və Konfrans Liqasının qrup mərhələlərinin 6-cı turunda keçiriləcək matçlara Azərbaycan, Rusiya və Türkiyə telekanalları vasitəsi ilə baxmaq mümkün olacaq.***

Qarşılaşmalar aşağıda adları qeyd olunan kanallar vasitəsi ilə birbaşa nümayiş etdiriləcək:

**AZƏRBAYCAN**

"CBC Sport"

21:45. "Qarabağ" - "Frayburq" (Avropa Liqası)

**TÜRKİYƏ**

TV 8,5

19:30. "Başakşehir" - "Harts" (Konfrans Liqası)

**RUSİYA**

"Matç TV"

19:30. "Başakşehir" - "Harts" (Konfrans Liqası)

21:45. "Monako" - "Srvena Zvezda" (Avropa Liqası)

Futbol 1"

19:30. RFŞ - "Fiorentina" (Konfrans Liqası)

21:45. "Real Sesyedad" - "Mançester Yunayted" (Avropa Liqası)

00:00. "Arsenal" - "Sürix" (Avropa Liqası)

"Futbol 2"

19:30. "Başakşehir" - "Harts" (Konfrans Liqası)

21:45. "Feyenoord" - "Latsio" (Avropa Liqası)



00:00. "Bude-Qlimt - PSV (Avropa Liqası)

"Futbol 3"

21:45. "Midtülland" - "Şturm" (Avropa Liqası)

00:00. "Köln"- "Nitsa" (Konfrans Liqası)



# Mahir Emreli tarixə düşdü

***Azərbaycan millisinin üzvü Mahir Emrelinin də formasını geyindiyi "Dinamo" (Zaqreb, Xorvatiya) Çempionlar Liqasının qrup mərhələsində son - 6-cı tur oyununa çıxıb.***

"Unikal" xəbər verir ki, Zaqreb təmsilçisi səfərdə "Çelsi" ilə qarşılaşıb. Oyun London klubunun 2:1 hesablı qələbəsi ilə başa çatıb. Mahir matçın 70-ci dəqiqəsində meydana çıxıb.

Yığmamızın hücumçusu xarici klublarda çıxış edib Çempionlar Liqasının qrup mərhələsində oynayan ilk azərbaycanlı futboçu kimi tarixə düşüb.

Qeyd edək ki, "Dinamo" 4 xalla qrup sonuncusu olub. "Çelsi" ilə "Milan" isə 1/8 finala yüksəlib.

# Benzemanın rekordunu yenilədi

***"Mançester Siti"nin futbolçusu Riko Lyuis Çempionla Liqasında yeni rekord müəyyənləşdirib.***



Qol.az klubun saytına istinadən xəbər verir ki, "şəhərlilər"in heyətində ilk dəfə ÇL-də start heyətdə meydana çıxan Riko buna qrup mərhələsinin 6-cı turunda "Sevilya" ilə görüşdə (3:1) fərqlənməklə nail olub. O, start heyətdə ilk dəfə meydana çıxaraq qol vuran ən gənc futbolçu adını qazanıb. Müdafiəçi buna 17 yaş 346 günlüyündə imza atıb.

Riko belə nəticə ilə "Real"dan Kərim Benzemanın rekordunu yeniləyib. Fransalı forvard 2005-ci ildə 352 günlüyündə ÇL-də start heyətdə meydana çıxmışdı və qol vurmuşdu.

Qeyd edək ki, Riko Lyuis "Mançester Siti"nin yetirməsidir və bu ildən əsas komandada oynayır.

# Ten Haq: "Ronaldo komandanın vacib hissəsidir"

***"Mançester Yunayted"in baş məşqçisi Erik Ten Haq Avropa Liqasının qrup mərhələsinin 6-cı turunda "Real Sosyedad"la oyun öncəsi klubun hücumçusu Kriştiano Ronaldo haqda danışıb.***

Qol.az "Manchester Evening News"a istinadən xəbər verir ki, o, portuqaliyalı futbolçu barədə müsbət fikirlər səsləndirib: "Əgər Ronaldonun fikirləri haqda bilmək istəyirsinizsə, onda mənə yox, ona sual verməlisiniz. Ronaldo əsl peşəkardır, komanda ilə işləyir, liderlik keyfiyyətləri var. Kriştiano komandanın vacib hissəsidir və istənilən müdafiəçi üçün təhlükədir. O, müdafiədə boşluqdan istifadə etməyi bacarır".

Qeyd edək ki, bu gün keçiriləcək "Real Sosyedad" - "Mançester Yunayted" görüşü Bakı vaxtı ilə saat 21:45-də başlayacaq.